

XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...

# BİNƏQƏDİ

20 Yanvar faciəsindən 27 il ötür



№1 (160) | 20 yanvar 2017

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik


## İlham Əliyev:

# "2017-ci il Azərbaycan iqtisadiyyatının inkişaf ili olacaq"



Yanvarın 12-də Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanın 2017-ci il üçün iqtisadi prioritetləri" sərlövhəli məqaləsi verilib. Məqaləni təqdim edirik.

Son illər ölkə həyatının bütün sahələrində reallaşdırılan məqsədyönlü tədbirlər öz uğurlu nəticələrini verib. İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrası ölkəmizin imkanlarını artırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığın inkişafı işinə də xidmət edir. Bu baxımdan, Azərbaycanın təşəbbüsü və liderliyi ilə icra olunan "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycan qazını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə də öz dəyərli töhfəsini verəcək. Layihə çərçivəsində "Şahdəniz-2" qaz-kondensat yatağının işlənməsi üzrə işlərin 87 faizi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə işlərin 72 faizi, Trans-Anadolu Boru Kəmərinin (TANAP) inşası üzrə işlərin 60 faizi, Trans-Adriatik Boru Kəmərinin (TAP) inşası üzrə işlərin 30 faizi icra edilib. Qeyd etmək lazımdır ki, "Şahdəniz" yatağı təsdiq edilmiş qaz ehtiyatı ən azı 1,2 trilyon kubmetr olan dünyanın ən böyük qaz yataqlarından biridir.

Azərbaycanda tranzit potensialının reallaşdırılması istiqamətində də mühüm layihələrin icrasına başlamışıq. Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi başa çatmalıdır. Bu layihənin icrası Çindən Avropaya yüklərin çatdırılma müddətinin 25-30 gündən 12-15 günə endirilməsinə imkan verəcək. Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində isə ötən il Azərbaycan ərazisində bütün tikinti işləri başa çatdırılıb. Beləliklə, Azərbaycan çox mühüm nəqliyyat qovşağına çevrilməkdədir. Hazırda iqtisadi siyasətin prioritetləri iqtisadiyyatın daha da şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafıdır.

Sənayenin inkişafı məqsədilə sənaye parklarının və zonalarının yaradılması işləri aparılmaqdadır. 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında investisiya dəyəri 2 milyard ABŞ dollarına yaxın olan bir neçə sənaye müəssisəsi açılacaq. Pambıq, tütün, fındıq, çay, barama və digər ixracyönümlü məhsulların istehsalı artırılacaq, bir neçə aqropark və iri fermer təsərrüfatlarının yaradılması davam etdiriləcək. İnformasiya sektorunun inkişafı məqsədilə xidmətlərin keyfiyyətinin, ölkənin tranzit informasiya dəhlizi potensialının artırılması davam etdiriləcək. Son zamanlar elektron vizaların verilməsi, "Tax free" sisteminin tətbiqi, Birinci Avropa Oyunları və Formula-1 kimi mötəbər tədbirlərin keçirilməsi ölkədə turizmin inkişafına əhəmiyyətli töhfə verir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, əldə etdiyimiz real uğurlarla yanaşı, çağırışlarla da üzləşmişik. Qlobal iqtisadi böhran prosesləri Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərib, gəlirlər azalıb və ötən il ərzində milli valyuta 10,1 faiz ucuzlaşıb. Lakin adekvat addımlar ataraq biz bu çətinliklərin öhdəsindən uğurla gəlirik. Daha dayanıqlı inkişafa nail olmaq üçün "Strateji Yol Xəritəsi" təsdiqlənib, struktur, institusional, pul-kredit, maliyyə və digər istiqamətlərdə dərin islahatlar aparılır, vergi və gömrük sahəsində idarəetmə təkmilləşdirilir, bütün sahələrdə şəffaflıq təmin edilir. Misal üçün, ötən ilin 10 ayında ticarət dövriyyəsinin azalmasına baxmayaraq, gömrük rüsumlarının toplanan həcmi 53 faiz artıb.

Azərbaycanın gücü təkcə iqtisadiyyatla məhdudlaşmır: Azərbaycan çoxmillətli bir ölkədir. Əsrlər boyu burada müxtəlif etnik qruplar və dini icmaların nümayəndələri sülh, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşayıblar. Azərbaycanda tolerantlıq ruhu daim hökm sürüb və 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunub. Ölkəmiz artıq sivilizasiyalar, dinlər və mədəniyyətlərarası dialoqa həsr olunmuş mötəbər beynəlxalq tədbirlərin keçirildiyi mühüm bir məkana çevrilib. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində uğurla təşkil olunması bunun yaxşı nümunəsi və dünya ölkələrinin Azərbaycandakı multikulturalizm mühitinə olan münasibətinin real ifadəsi idi. Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusilə qeyd etmək lazımdır. Bu tarixi səfər zamanı Roma Katolik Kilsəsinin rəhbəri dünyaya çox açıq mesajlar göndərdi. Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi.

Ölkə həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan idman sahəsində də böyük uğurlar əldə edib. Paytaxtda və regionlarda ən müasir Olimpiya idman kompleksləri və digər idman infrastrukturu yaradılıb. Dövlət səviyyəsində idmana göstərilən qayğı və ölkədə ən müasir infrastrukturun yaradılması gənc nəslin idmana olan marağını böyük dərəcədə artırıb. İdmançılarımızın ən mühüm beynəlxalq idman tədbirlərində uğurlu iştirakı bu gün artıq yaxşı ənənəyə çevrilib və Azərbaycan idmançıları Rio Olimpiya Oyunlarında bunu bir daha sübut ediblər. İdmançılarımız 18 medal qazanaraq medalların sayına görə dünyada 14-cü, Avropada 7-ci, postsovet məkanında 2-ci, müsəlman ölkələri içərisində isə birinci yeri qazanıb.

Azərbaycan, həmçinin, mötəbər idman tədbirlərinə ev sahibliyi edən dünyanın tanınmış ölkələrindən biridir. Ölkəmizdə 2015-ci ildə ilk Avropa Oyunları və Bakıda 2016-cı ildə dünyada 500 milyon insanın izlədiyi Formula-1 Qran-Pri yarışları keçirilib. Bu il yenidən beynəlxalq idman aləminin diqqəti Azərbaycanda olacaq. 2017-ci ildə ölkəmizdə İslam Həmrəyliyi Oyunları keçiriləcək. İdman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə böyük töhfə verəcək bu tədbirlər həm də Azərbaycana gələn turistlərin sayını xeyli dərəcə artıracaq, bununla da ölkəmizdə turizm sektorunun inkişaf etdirilməsi işinə xidmət göstərəcək.

Mən əminəm ki, 2017-ci il Azərbaycan iqtisadiyyatının inkişaf ili olacaq. Biz səmərəli iqtisadi islahatların həyata keçirilməsini davam etdirəcəyik. Eyni zamanda, sosialyönümlü təşəbbüslərin maliyyələşdirilməsini artıracağıq. İqtisadiyyatın şaxələndirilməsi işi demək olar ki, başa çatmaqdadır. Hazırda ölkəmizin ümumi daxili məhsulunun 70 faizi qeyri-neft sektorunun payına düşür. Bu gün bizim qarşımızda duran əsas məqsəd ixracın şaxələndirilməsidir. 2016-cı ildə atdığımız addımlar bu məqsədə nail olunması işinə xidmət edəcək. Azərbaycan artıq Dünya İqtisadi Forumunun Qlobal Rəqabət Qabiliyyətliliyi İndeksinə görə 37-ci yerdədir (MDB ölkələri sırasında 1-ci yerdə) və biz bu uğuru daha da möhkəmləndirmək əzmindəyik.

## Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının energetika naziri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Al Falih ilə görüşüb.

Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında mövcud olan əməkdaşlığı yüksək qiymətləndirən nazir Xalid Al Falih gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndiriləcəyinə ümidvar olduğunu vurğuladı.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərini məmnunluqla xatırladı, ölkələrimiz arasında qardaşlıq münasibətlərinin olduğunu dedi.

Söhbət zamanı Səudiyyə Ərəbistanı tərəfindən Azərbaycana investisiyaların yatırılması, Səudiyyə Ərəbistanının Energetika, Sənaye və Təbii Sərvətlər Nazirliyi ilə Azərbaycanın Energetika Nazirliyi arasında əməkdaşlıq, "Saudi Aramco" şirkəti ilə SOCAR-ın həm regionda, həm də digər ölkələrdə birgə layihələr həyata keçirmələri və digər məsələlər müzakirə edildi.

## Dövlət başçısı BP-nin baş icraçı direktoru ilə görüşü



Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Böyük Britaniyanın BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşü olub.

Görüşdə BP şirkətinin baş icraçı direktoru Robert Dadlinin Azərbaycana son səfəri məmnunluqla xatırlandı. BP ilə SOCAR arasında əməkdaşlığın uğurla inkişaf etdiyi, BP-nin Azərbaycanda ən böyük investor olduğu qeyd edildi, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda gedən işlər müzakirə olundu. Söhbət zamanı "Cənub Qaz Dəhlizi", TAP, TANAP layihələrinin uğurlu icrası və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.


TƏDBİR SƏH. 2



Ümumrayon müşavirəsi

SOSİAL SƏH. 4



Vətəndaş məmnunluğuna nail olmaq əsas məqsədlərdəndir

SİYASƏT SƏH. 6



Ərazi ilk partiya təşkilatları hesabat verirlər


## Prezident İlham Əliyev Lüksemburqun Baş naziri, dövlət naziri Ksavyer Bettel ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Lüksemburqun Baş naziri, dövlət naziri Ksavyer Bettel ilə görüşüb.

Lüksemburqun Baş naziri, dövlət naziri Ksavyer Bettel ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə, o cümlədən maliyyə və investisiya sahələrində əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bildirdi. Lüksemburq ilə Azərbaycan arasında hava nəqliyyatı ilə yük daşımaları sahəsində uğurlu əməkdaşlığın olduğunu deyən Ksavyer Bettel ölkəsində İKT, kosmik sənaye, bank və maliyyə sahələrinin inkişaf etdiyini, bu sahələrdə Azərbaycanla əməkdaşlığa hazır olduqlarını dedi.

Prezident İlham Əliyev Azərbaycanın müxtəlif sahələrdə Lüksemburqla əməkdaşlıqda maraqlı olduğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda da İKT-nin inkişafına xüsusi diqqət ayrıldığını, hökumətin bu sahəyə böyük investisiyalar yatırdığını bildirdi. Azərbaycanda kosmik sənayenin də inkişaf etdiyini deyən Prezident İlham Əliyev ölkəmizin bu sahələrdə Lüksemburqla əməkdaşlıqda maraqlı olduğunu vurğuladı.

Söhbət zamanı qarşılıqlı investisiya, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Ümumrayon müşavirəsi



Yanvarın 12-də Binəqədi Rayon İcra Hakimiyyətində RİH başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə rayon müşavirəsi keçirilmişdir.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri, əməkdaşları, qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər, bələdiyyələr, kommunal və bir sıra strukturların rəhbərləri iştirak etmişlər.

Müşavirədə 2016-cı ildə Rayon İcra Hakimiyyətinin rəhbərliyi altında rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarla birlikdə görülmüş işlərə nəzər salınmış, ayrı-ayrı idarə, müəssisə və təşkilatların fəaliyyətində mövcud olan nöqsan və çatışmazlıqlar barədə ətraflı müzakirə aparılmış, 2017-ci ildə qarşıda duran vəzifələrdən danışılmışdır.

Qeyd edilmişdir ki, rayon ərazisində torpaqların zəbt edilməsi, qanunsuz tikinti işlərinin aparılması, tullantılarla çirkləndirilməsi və yararsız hala salınması halları qalmaqda davam edir və qanunsuz tikinti işlərinin qarşısının alınması üçün görülən tədbirlər qənaətbəxş deyildir, dövlət ehtiyacları üçün alınması nəzərdə tutulan torpaq sahələrində inşa



edilmiş evlərin sökülməsi zamanı əhaliyə kompensasiyaların verilməsi ilə əlaqədar zəruri izahat işləri aparılmır.

Rayon bələdiyyələrinin fəaliyyətində, bələdiyyə vergi və rüsumlarının yığılmasında, vətəndaşları narahat edən yerli əhəmiyyətli məsələlərin həllində, sakinlərin müraciətlərinə baxılmasında nöqsanlara yol verilir, bəzi bələdiyyələr öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməmişdir.

Vətəndaşların müraciətlərinə baxılması, təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülsə də, vətəndaş məmnunluğunu tam təmin etmək mümkün olmamışdır. Yerlərdə vətəndaşların qəbulunun təşkili, onların müraciətlərinə baxılması və qanuna müvafiq cavablandırılması istiqamətində işin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə ciddi ehtiyac vardır.

Kommunal xidmət müəssisələrində əhaliyə xidmətin keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi üçün ciddi tədbirlər görülməlidir.

Rayon ərazisində qanunsuz valyutadəyişmə məntəqələrinin, qumarxana və mərc oyunlarının, insan alverinə şərait yaradan obyektlərin aşkar edilərək, onların fəaliyyətinin qarşısının alınması üçün ciddi tədbirlər görülməlidir.

Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistem və inistitusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli,dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar. Vəzifələrinin icrası ilə bağlı bir araya sığmayan, dövlət orqanlarının nüfuzunu aşağı sala biləcək hərəkətlərin qarşısı qətiyyətlə alınmalıdır. Hər bir dövlət qurumunun rəhbəri isə öz əməkdaşları üçün vicdanlılıq nümunəsi olmalıdır.

Sonda qeyd edilmişdir ki, 2016-cı ilin yekunları ilə bağlı Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində bu nöqsan və çatışmazlıqlara xüsusi yer ayrılmalı, ciddi müzakirələr aparılmalı, konkret tədbirlər müəyyənləşdirilməlidir.

# Əsl vətənpərvərlik insanın daxilindən gələn müqəddəs duyğudur



Yanvarın 16-da Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Şəhid Fəxrəddin Qurbanlının doğum gününə həsr olunmuş "Son görüş" tədbirində fəal iştirak edən 179 saylı məktəbin müəllim və şagird kollektivini qəbul etmişdir.

İlk öncə Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov şagirdləri salamlamış və onların vətənpərvərlik sahəsində hazırladığı çıxışı xüsusi vurğulamışdır. Natiq qeyd etmişdir ki, vətənpərvərliyin mahiyyətindən danışarkən ümummilli lider bunun mənəviyyatla bilavasitə bağlılığını vurğulayaraq qeyd edirdi: "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır".

Natiq çıxışında onu da əlavə etdi ki, milli mənlik hər bir adamın özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir. Aprel döyüşlərində igidlik göstərərək şəhidlik zirvəsinə ucalan Fəxrəddin kimi övladlar bu gün hər biriniz üçün nümunə olmalı və sizlər də yaxşı təhsil alaraq əsl vətəndaşlıq nümunəsini göstərməlisiniz.

Aprel döyüşlərini xatırladan natiq Cənab prezidentin çıxışını nümunə göstərdi: "Siz torpaqların azad edilməsi üçün artıq nə lazımdırsa etmisiniz. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi, düşmən təxribatının qarşısını aldı. Təmas xəttində yaranmış vəziyyət onu göstərir ki, doğrudan da Azərbaycan Ordusu, Azərbaycan əsgəri, zabiti böyük işlərə qadirdir, qəhrəmandır. Ərazi bütövlüyümüzün bərpası hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Sizin kimi övladlar Vətənin şöhrətini ucaldırlar".

Çıxışının sonunda natiq rayonun şəhid övladı Fəxrəddin Qurbanlının doğum günündə onun təhsil aldığı məktəbin kollektivinin yüksək fəallıq göstərməsini yaxşı nümunə kimi göstərərək , şagirdlərə gələcək dərslərində uğurlar dilədi.

Sonra çıxış edən şagirdlər diqqət üçün rayon rəhbərinə təşəkkür edərək, Cənab prezidentimizin apardığı uğurlu siyasətə ən layiqli cavab olaraq yüksək təhsil uğurları ilə nümunə göstərəcəklərinə dair söz verdilər.

# Enerji təchizatı ilə bağlı problemlər müzakirə olunub

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov iştirakı ilə RİH başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən Elşad Rəhimov və rayon Enerji təchizatı və satış idarəsinin vəzifəli şəxsləri ilə görüş keçirilmişdir.



Tədbiri giriş nitqi ilə açan İlqar Süleymanov 2016-cı il ərzində görülən və cari ildə görülməsi nəzərdə tutulan işlərdən danışaraq iclas iştirakçılarını müzakirələrdə aktiv iştirak etməyə dəvət etdi.

Tədbirdə enerji təchizatı və satış sahəsində mövcud olan problemlərlə bağlı vətəndaş müraciətləri geniş müzakirə edilmiş, vətəndaşların qəbul günləri, qəbul qaydaları, telefon zəng mərkəzləri təhlil edilmiş, bu və ya digər sahələrdə mövcud olan problemlərin aradan qaldırılması ilə bağlı tövsiyələr verilmişdir.

Tədbir zamanı çıxış edən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə RİH başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə Binəqədi Rayon İcra Hakimiyyətində keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd etmişdir ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də davam etmiş və ölkə Prezidenti cənab İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli Fərmanının və digər strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də Respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Bununla belə qeyd edilmişdir ki, kommunal xidmət müəssisələrində əhaliyə xidmətin keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi üçün ciddi tədbirlər görülməlidir.

Natiq eyni zamanda vurğulamışdır ki, vətəndaşların şifahi müraciətləri zamanı onlarla dövlət qulluqçularının etik davranış qaydaları çərçivəsində ünsiyyət qurulmalı və edilən müraciətlə bağlı vətəndaşlara düzgün istiqamət verilməlidir.

Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistem və inistitusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar.

Sonda qeyd edilmişdir ki, 2016-cı ilin yekunları ilə bağlı Rayon İcra Hakimiyyəti başçısının hesabat məruzəsində bu nöqsan və çatışmazlıqlara xüsusi yer ayrılmalı, ciddi müzakirələr aparılmalı, konkret tədbirlər müəyyənləşdirilməlidir.

# Gənclərə örnək olan qəhrəmanlar heç zaman unudulmur




Yanvarın 13-də "Aprel döyüşləri"ndə qəhrəmancasına həlak olmuş şəhid Fəxrəddin Qurbanlının doğum günü ilə əlaqədar Binəqədi rayonundan həqiqi hərbi xidmətə çağırılmış gənclər və rayon fəalları igid həmyerlimizin məzarını ziyarət ediblər. Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış İdarəsinin, rayon Gənclər və İdman İdarəsinin təşkilati dəstəyi ilə həyata keçirilən tədbir Mərkəzi Mədəniyyət Evində davam edib.

Azərbaycan Respublikasının Dövlət himni ilə açıq elan edilən tədbirdə ilk olaraq çıxış edən 179 nömrəli tam orta məktəbin direktoru Almaz İsmayılova şəhidin məktəb illərindən danışıb.

Fəxrəddin Qurbanlının atası Seyfəddin Qurbanov tədbirdə iştirak edən şəxslərə minnətdarlığını bildirərək, dövlətimizin şəhid ailələrinə qayğısından razılığını ifadə edib. Daha sonra şəhidin təhsil aldığı Azərbaycan Universitetinin dekanı Aygün Musayeva, rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış İdarəsinin rəisi Novruz Rəhimov və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva çıxış edərək Fəxrəddin Qurbanlının timsalında bütün şəhidlərin xatirəsinin əbədi olaraq Azərbaycan xalqının qəlbində yaşayacağını vurğulayıb, ailələrinə dərin hüznlə başsağlığı veriblər.

Tədbirin rəsmi hissəsi bitdikdən sonra şəhidin təhsil aldığı 179 nömrəli orta məktəbin istedadlı şagirlərinin ifasında bədii kompozisiya nümayiş olunub. Azərbaycanın tanınmış hərbi diktoru, hərbi vətənpərvərlik mahnılarının ifaçısı, "Vətənpərvərliyin Təbliğinə Dəstək" İctimai Birliyinin sədri Şəmistan Əlizamanlı öz səmimi hisslərini tədbir iştirakçıları ilə bölüşüb, vətənpərvərlik ruhunda mahnılar ifa edib.

Sonda həqiqi hərbi xidmətə çağırılmış gənclər Azərbaycan Respublikasının Dövlət bayrağını öpərək hərbi xidmətə yola düşüblər.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Binəqədi bələdiyyəsində monitorinq keçirilib

Yanvarın 16-da Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov Binəqədi Rayonu Binəqədi Bələdiyyəsində olmuşdur.

O, bələdiyyənin məsul vəzifəli şəxsləri ilə keçirdiyi görüş zamanı Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirilən fikirlərə toxunaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə gedən sosial-iqtisadi inkişafın 2016-cı ildə də davam etdiyini bildirdi. O həmçinin "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" və digər strateji əhəmiyyətli sənədlərin imzalanmasının ölkə iqtisadiyyatına mühüm töhfələri olacağını bildirmişdir.



E. İmanov bələdiyyədə vətəndaşların qəbulu, onların qaldırdığı məsələlərin həlli mexanizmi ilə yaxından tanış olmuş, vətəndaş müraciətlərinə baxılması, bələdiyyə sədrinin 2016-cı ildəki fəaliyyəti ilə əlaqədar keçiriləcək olan Hesabat yığıncağının təşkil edilməsi və başqa məsələlər barədə müvafiq tövsiyələrini vermişdir. Daha sonra O, bələdiyyə sədri Sitarə Cabbarlının vətəndaşları qəbul etməsi prosesində iştirak etmişdir.

# Heç kəs unudulmur, heç nə yaddan çıxmır...

## 20 Yanvar faciəsinin 27-cı ildönümünə həsr olunmuş anım mərasimi keçirildi

Yanvarın 19-da Biləcəri qəsəbəsi “GülləYağışı” abidəsinin önündə 20 Yanvar faciəsinin 27-cı ildönümünə həsr olunmuş anım mərasimi keçirildi.

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, Rayon İcra Hakimiyyəti başçısının müavinləri Vüsar İsmayılov və Aygün Əliyeva, Aparatın şöbə müdirləri, rayonun hüquq mühafizə orqanları və icra strukturlarının rəhbərləri, rayon sakinləri olan 20 Yanvar əlilləri və şəhid ailələrinin üzvləri, fəal gənclər, rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər.







Biləcəri qəsəbəsində 20 Yanvar şəhidlərinin xatirəsinə ucaldılmış “Güllə-Yağışı” abidəsinin önünə gül dəstələrinin qoyulması ilə başlayan anım mərasimində faciə qurbanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Aparıcı 20 Yanvar faciəsi barədə məlumat verərək, Azərbaycan xalqının istiqlal mübarizəsi tarixində 20 Yanvar şəhidlərinin öz qanları ilə yazdıqları şərəfli səhifədən danışdı.

Tədbirdə çıxış edənlər “20 Yanvar” Cəmiyyətinin rayon şöbəsinin sədri Mübariz İsmayılov , 20 Yanvar şəhidi Fərizə Allahverdiyevanın anası Bağda Nəbiyeva və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov çıxış edərək 20 Yanvar faciəsindən 27 il ötməsinə baxmayaraq həmin o məşəqqətli günlər yaddaşlara əbədi həkk olunduğunu diqqətə çatdırdılar. Natiqlər qeyd etdilər ki, həmin gün Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. Natiqlər çıxışlarında vurğuladılar ki, bütün sahələrdə həyata keçirdiyi layihələri, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə, dünyada diqqət mərkəzində olan Heydər Əliyev Fondu və onun Prezidenti Mehriban xanım Əliyeva müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinə də böyük qayğı ilə yanaşır. Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görür. O cümlədən, çıxışlarda qələbə gününün uzaqda olmadığını diqqətə çatdıran natiqlər bu qələbəyə həm də Azərbaycanın bugünkü hərtərəfli uğurları, bütün dünyada gündən-günə artan nüfuzu, dövlətimizin başçısı, Ali Baş Komandan, Prezident İlham Əliyevin bu istiqamətdə qətiyyətli addımlarının da zəmanət verdiyini bildirdilər.

Daha sonra tədbirdə Şirzad Pirallahının ifasında Vətənpərvərlik şeri və Azərbaycanın tanınmış hərbi diktoru, hərbi vətənpərvərlik mahnılarının ifaçısı, “Vətənpərvərliyin Təbliğinə Dəstək” İctimai Birliyinin sədri Şəmistan Əlizamanlının ifasında vətənpərvərlik mahnısı ifa edildi.

Anım mərasimi bitdikdən sonra gecə saatlarına qədər tədbir iştirakçıları və rayon ictimaiyyəti “Güllə Yağışı” abidəsinin önünə gül dəstələri qoyaraq xalqımızın azadlığı yolunda canlarından keçən şəhidlərin ruhuna öz ehtiramlarını bildirdilər.

## 20 Yanvar faciəsində Binəqədi rayonundan 18 nəfər şəhid olub, 45 nəfər güllə yarası alıb

1990-cı il, yanvarın 19-dan 20-nə keçən gecə... Adi qış gecələrindən biri. Bakı şəhəri qəribə və hüznlü sükut içində idi. Şəhər sakinləri az sonra Azərbaycan xalqının yaddaşında qanlı iz buraxacaq müdhiş faciədən xəbərsiz idilər. Kimsə ağlına belə gətirmirdi ki, sovet qoşunlarının törətdiyi qətliam nəticəsində yüzlərlə günahsız insanın qanı axıdılacaq, neçə-neçə tale yarımçıq qalacaq.

**Qırmızı ordunun ölkəmizə təcavüzü nəticəsində təkcə Bakı şəhərində 200-dən cox mülki vətəndaş qətlə yetirilmiş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi.**

Xalqımızın qürur ünvanına çevrilmiş 20 Yanvar hadisələrinin 27-ci ildönümüdür. Respublikamızın bütün bölgələrində bununla bağlı tədbirlər keçirilir. Hadisənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif fikirlərə, rəylərə rast gəlinsə də, bütün əks mövqelər bir nöqtədə kəsişir: bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə, keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Keçmiş sovet imperiyasının 1990-cı il yanvarın 20-də xalqımıza qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi daimi olaraq bəşər tarixində qara ləkə olaraq qalacaq. Bu qanlı olay təkcə bizə qarşı deyil, eyni zamanda Tanrının yaratdığı ən ali varlıq olan insanlığa qarşı törədilmiş dəhşətli cinayət faktıdır.





Qırmızı ordunun ölkəmizə təcavüzü nəticəsində təkcə Bakı şəhərində 200-dən cox mülki vətəndaş qətlə yetirilmiş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Milli azadlıq, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bir daha bütün dünyaya nümayiş etdirdi. Bu qanlı olaydan 26 il ötsə də hər il 20 Yanvar faciəsi xalqımız tərəfindən böyük ürək ağrısı ilə, həmçinin qürurla anılır.

20 Yanvar faciəsi hər il Binəqədi rayonunda da ehtiramla yad olunur. Qanlı yanvar hadisələri ilə bağlı Biləcəri qəsəbəsindəki parkda ucaldılmış “Güllə Yağışı” memarlıq kompleksi rayon ictimaiyyəti, gənclər və məktəblilər tərəfindən ziyarət edilir, faciə qurbanlarının xatirələri yad olunur. Qeyd edək ki, həmin qanlı gecədə Bakıda ən dəhşətli mənzərələrdən biri də Binəqədi rayonunun ərazisində - Biləcəri şosesi və Biləcəri yoxuşunda baş verib. Məhz həmən gecə Binəqədi rayonundan 18 nəfər yağı gülləsinin qurbanı olub, 45 nəfər isə ağır güllə yarası alıb. Hadisə şahidlərinin sözlərinə görə, Qırmızı ordunun şəhərə gəlişinin qarşısını almaq məqsədilə hələ yanvarın 16-da Biləcəridən Bakıya gələn yolda, o vaxtkı “İskra” zavodunun qarşısında piket təşkil edilib. 4 gün növbəlilik əsasında davam edən piketdə əsasən gənclər və qəsəbə sakinləri iştirak ediblər. İnsanlarda yüksək vətənpərvərlik əhval- ruhiyyəsi hökm sürüb, heç kəs ordunun əhaliyə atəş açacağına inanmayıb. Yanvarın 19-dan 20-nə keçən gecə artıq tanklar həmin əraziyə yaxınlaşıb. İnsanlar tankların qarşısını kəsərək geri dönməyi tələb etdiyi zaman ətrafdakı binalara atəş açılmağa başlanılıb.

Hadisənin şahidləri mətbuata verdiyi açıqlamasında bildirib ki, Biləcəri yolu yanvarın 18-dən bağlanıbmış: “19 yanvarda hava çox soyuq idi. Camaat küçədə növbə çəkirdi. Biz sovet ordusunda xidmət etmişdik deyə, heç vaxt inanmazdıq ki, qulluğunda durduğumuz bu ordu nə vaxtsa öz silahını xalqına qarşı çevirər. Amma yanılmışdıq. 19-dan 20-nə keçən gecə saat 1-ə işləmiş Biləcəri tərəfdən 20 yanvar istiqamətinə iki tank gəldi. Göyə 2 fişəng buraxdılar, daha sonra güllə atdılar. Gördük ki, tanklar maşınları əzib keçirlər. İnsanlara avtomat silahlardan atəş açılırdı”.

**“19 yanvarda hava çox soyuq idi. Camaat küçədə növbə çəkirdi. Biz sovet ordusunda xidmət etmişdik deyə, heç vaxt inanmazdıq ki, qulluğunda durduğumuz bu ordu nə vaxtsa öz silahını xalqına qarşı çevirər”.**

1967-ci il təvəllüdlü Fuad Babayevi isə ölüm Biləcəri yoxuşunda haqlayıb. Sakinlərin dediyinə görə, o, 23 nəfər gənclə XI-ci Qızıl Ordu (indiki 20 Yanvar) meydanına əliyalın insanlara kömək etməyə gedirmiş. Elə bu zaman Fuada güllə dəyir, yoldaşları nə qədər çalışsalar da onu həyata qaytarmaq mümkün olmur. Binəqədi rayon təmir-tikinti idarəsində fəhlə işləyən Faiq Əlizadə isə yanvarın 19-da gecə güllə səsinə oyanır. Tale onu həmən gecə yaşadığı 7-ci mikrorayondan “Cənclik” metrostansiyasının yanına gətirir və elə oradaca yağı gülləsinin qurbanı olur. Həmin gecə daha bir qəsəbə sakini - İlqar Kərimov Biləcəridəki Dəmiryol xəstəxanasının yaxınlığında rus əsgərlərinin gülləsinə tuş gəlir. Biləcəri şosesində hərəkət edən hərbi zirehli maşınlardan və tanklardan açılan atəş zamanı mətbəxdə xörək hazırlayan 77 yaşlı Sürəyya Babayeva aldığı yaradan yerindəcə həlak olur. Binaya açılan davamlı atəş nəticəsində daha bir nəfər - həmin binanın 76-cı mənzilində yaşayan Mürsəl Əsgərov da ağır güllə yarası alır.

Rayon sakinləri - Rüstəm Əliyev və Sevda Salayeva da 20 Yanvar faciəsində şəhid olublar. Yanvarın 19-da Rüstəm idarə etdiyi avtobus marşrutu ilə yaralıları Salyan kazarması yaxınlığındakı dayanacaqdan xəstəxanaya daşıyarkən Tbilisi prospektində hərbçilərin açdığı aramsız atəşə məruz qalıb. Gülləbaran altında özünü itirməyən Rüstəm sonuncu yaralıları da xəstəxanaya çatdırmağa müvəffəq olub və elə oradaca huşunu itirib. Bədəninin bir neçə yerindən güllə yarası alan mərd azərbaycanlı balası yalnız yanvarın 21-də gözlərini açıb. Doğmaları onu çətinliklə tanıya biliblər. Rüstəm özünə gələrkən ilk axtardığı şəxs anası Zemfira xanım olub. O, səhərə yaxın “Semaşko” xəstəxanasında şam işığında əməliyyat olunub. Təəssüf ki, həkimlər nə qədər cəhd etsələr də, onun həyatını xilas edə bilməyiblər. Yüzlərlə insanın həyatını qurtaran Rüstəm Əliyev Azərbaycanın azadlığı və bütövlüyü uğrunda əbədi olaraq gözlərini yumub. Nazirlər Kabinetinin qərarı ilə 1993-cü ildə 20 Yanvar şəhidi Rüstəm Əliyevin xatirəsi əbədiləşdirilib və oxuduğu 3 saylı orta məktəbə onun adı verilib.

...22 yaşlı Sevda Salayeva rabitə sahəsində çalışırmış. Kollektivdə işgüzarlığı, məsuliyyəti ilə böyük hörmət qazanıb, deyib-gülən, şən, zarafatcıl gənc olub. Yanvarın 19-da işdən evə qayıtmadığından, ailə üzvləri çox narahat olublar, amma nə qədər axtarsalar da onu tapmayıblar. Bir neçə gündən sonra qohumlardan biri zəng edib ki, Sevdanın adı həmin qanlı gecədə həlak olanların siyahısındadır.

Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi, o vaxtkı rəhbərlər başda olmaqla, cinayətkar imperiyanın Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi. Bu qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, bu faciəni törədənlərə öz dərin nifrətini bildirir. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

# Qəhrəman Azərbaycan zabitinin xatirəsinə dərin hörmətlə...




Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və "Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda" İctimai Birliyinin təşkilati dəstəyi ilə ötən ilin aprel ayında cəbhə bölgəsində baş vermiş döyüşlər nəticəsində şəhid olmuş polkovnik-leytenant Sənan Axundovun xatirə lövhəsinin açılış mərasimi keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının şöbə müdirləri, rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva, Binəqədi bələdiyyəsinin sədr müavini Sabir Həsənov, 2 saylı Sahə İƏD üzrə nümayəndə Ləman Əliyeva, "Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda" İctimai Birliyinin sədri Lyudmila Xəlilova, Müdafiə Nazirliyinin əməkdaşı, polkovnik-leytenant Vüqar Abduləzimov, rayon sakinləri, şəhidin təhsil aldığı 144 saylı məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan Vüsar İsmayılov ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş Sənan Axundov haqqında iştirakçılara məlumat verib və onun göstərdiyi qəhrəmanlığın gənclərimiz üçün gözəl örnək olduğunu diqqətə çatdırıb.

Sonra lövhənin üzərindəki örtük götürüb, önünə tər qərənfillər düzülüb.

# Vətəndaş məmnunluğuna nail olmaq əsas məqsədlərdəndir

Yanvarın 17-də 313 saylı məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin, 28 May qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin və Xocəsən bələdiyyəsinin 2016-cı ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib. Yığıncaqda Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, RİH başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Elşad Rəhimov, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Hacıbaba Babayev və qəsəbə sakinləri iştirak ediblər.





Tədbiri giriş nitqi ilə açan İlqar Süleymanov qəsəbədə görülən və görülməsi nəzərdə tutulan işlərdən danışaraq sakinləri müzakirələrdə aktiv iştirak etməyə çağırıb. Sonra Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Əlikram Haqverdiyev, 28 May qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Əlipaşa Xankişiyev və Xocəsən bələdiyyəsinin sədri Anar Abbasov 2016-cı il ərzində qəsəbədə görülən işlər barədə geniş məruzə ilə çıxış ediblər. Yığıncaqda əhalini narahat edən bir sıra problemlərə toxunularaq, onların həlli yolları ətrafında fikir mübadiləsi və müzakirələr aparıblar.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov yekun nitqində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq bildirib ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də davam edib və dövlət başçısının "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli fərmanının və digər strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Qeyd olunub ki, qəsəbələrin ərazisində torpaqların zəbt edilməsi, qanunsuz tikinti işlərinin aparılması, tullantılarla çirkləndirilməsi və yararsız hala salınması halları hələ də davam edir. Təəssüf ki, bütün bunların qarşısının alınması istiqamətində görülən tədbirlər qənaətbəxş deyil. Dövlət ehtiyacları üçün alınması nəzərdə tutulan torpaq sahələrində inşa edilən evlərin sökülməsi zamanı əhaliyə kompensasiyaların verilməsi ilə əlaqədar zəruri izahat işləri aparılmır.

Yığıncaqda o da vurğulanıb ki, rayon bələdiyyələrinin fəaliyyətində, bələdiyyə vergi və rüsumlarının yığılmasında, vətəndaşları narahat edən yerli əhəmiyyətli məsələlərin həllində, sakinlərin müraciətlərinə baxılmasında nöqsanlara yol verilir, bəzi bələdiyyələr öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməyib. Vətəndaşların müraciətlərinə baxılması istiqamətində bir sıra tədbirlər görülsə də, vətəndaş məmnunluğunu tam təmin etmək mümkün olmayıb. Yerlərdə vətəndaşların qəbulunun təşkili, onların müraciətlərinə baxılması və qanunamüvafiq cavablandırılması ilə bağlı işin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə ciddi ehtiyac vardır.

Kommunal xidmət müəssisələrində əhaliyə xidmətin keyfiyyətinin yaxşılaşdırılması, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi üçün ciddi tədbirlərin görülməsi barədə də söhbət açılıb. Bildirilib ki, rayon ərazisində qanunsuz valyutadəyişmə məntəqələrinin, qumarxana və mərc oyunlarının, insan alverinə şərait yaradan obyektlərin aşkar edilərək, onların fəaliyyətinin qarşısının alınması üçün ciddi tədbirlər görülməlidir.

Hesabatda qeyd olunub ki, dövlət və bələdiyyə qulluğunda çalışan, məsul vəzifə tutan əməkdaşlara, onların bilik və bacarıqlarının artırılmasına, etik davranış qaydalarına ciddi əməl olunmasına tələb gücləndirilməlidir. Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da sərtləşdirilməli, onların aradan qaldırılmasına dair sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır.

Tədbirin yekununda Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov rayonun ictimai-siyasi həyatında fəal iştirakına və 75 illik yubileyi ilə əlaqədar Xocəsən Ağsaqqallar Şurasının üzvü Ağayar Məmmədovu təbrik edib.

# Gigiyena və Epidemiologiya Mərkəzində görüş



Yanvarı 16-da Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının müavini Vüsar İsmayılovun iştirakı ilə Gigiyena və Epidemiologiya Mərkəzində iclas keçirilmişdir. Görüşdə Gigiyena və Epidemiologiya Mərkəzinin Direktoru Fədai Hacıyev və mərkəzin əməkdaşları iştirak etmişdir. İclasda rayonun sosial- iqtisadi fəaliyyəti, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması istiqamətində müzakirələr aparılmışdır. V. İsmayılov görüş zamanı bildirmişdir ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat prespektivi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın inkişafı, ixtisaslaşmış turizm sənayesinin inkişafı, logistika və ticarətin inkişafı, uyğun qiymətə mənzil təminatının inkişafı, peşə təhsili və təliminin inkişafı, maliyyə xidmətlərinin inkişafı, telekommunikasiya və informasiya texnologiyalarının inkişafı və kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafı ölkəmizdə iqtisadiyyatın yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaqdır.

Bundan əlavə olaraq, V. İsmayılov rayon ərazisində sanitar- epidemioloji vəziyyətin yaxşılaşdırılması, ekoloji sağlamlığın təmin edilməsi və ətraf mühitin mühafizəsi ilə əlaqədar müzakirələr aparmış və mərkəz tərəfindən görülən işlərlə yaxından tanış olmuşdur. O, eyni zamanda mərkəzin işində şəffaflığı artırmaq istiqamətində öz tövsiyələrini vermişdir.

Tədbir zamanı çıxış edən Rayon İcra Hakimiyyəti başçısının müavini V. İsmayılov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və 12 yanvar 2017-ci il tarixdə Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun sədrliyi ilə Binəqədi Rayon İcra Hakimiyyətində keçirilmiş müşavirədə səsləndirilən fikirlərə toxunaraq qeyd etmişdir ki, ölkədə gedən sosial-iqtisadi inkişaf 2016-cı ildə də uğurla davam etmiş və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən strateji əhəmiyyətli sənədlərin imzalanması və icrası 2017-ci ildə də Respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayacaqdır.

Natiq vurğulamışdır ki, Dövlət başçısının ölkədə sahibkarlığın inkişafı istiqamətində atdığı addımlar sistemli və ardıcıl fəaliyyət konsepsiyasına əsaslanır. Azərbaycan Prezidenti hesab edir ki, bazar mexanizminin hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı sosial-iqtisadi sistemin yenidən qurulmasında, sosialyönümlü problemlərin kompleks həllində mühüm rol oynayır. Ötən illər ərzində sahibkarlığın hüquqi bazasının sistem halına gətirilməsini təmin edən qanunlar və bir sıra digər mühüm normativ sənədlər qəbul edilmişdir.

Sahibkarlara dövlət büdcəsindən ayrılan vəsaitin həcminin ildən-ilə artırılması, iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, antinhisar və korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilərək "vahid pəncərə" prinsipi əsasında aparılması, yerlərdə regional iqtisad məhkəmələrinin formalaşdırılması, azad iqtisadi zonaların yaradılmasını nəzərdə tutan xüsusi qanunun qəbulu və digər tədbirlər iş adamları tərəfindən də razılıqla qarşılanır.

Prezident İlham Əliyev sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında qanun imzalayıb. Qanuna əsasən 2015-ci il noyabrın 1-dən 2017-ci il noyabrın 1-dək yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər.

İşində biganəliyə, kobudluğa yol verən məmurlar ölkə başçısının bu çıxışından öz paylarını almalıdırlar.

Natiq eyni zamanda vurğulamışdır ki, vətəndaşların şifahi müraciətləri zamanı onlarla dövlət qulluqçularının etik davranış qaydaları çərçivəsində ünsiyyət qurulmalı və edilən müraciətlə bağlı vətəndaşlara düzgün istiqamət verilməlidir.

Bütün sahələr üzrə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistem və inistitusional xarakterli tədbirlər hazırlanaraq həyata keçirilməli, dövlət orqanlarının fəaliyyətində şəffaflıq artırılmalıdır.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə kadrların düzgün seçilib yerləşdirilməsi məsələsi mühüm əhəmiyyət kəsb edir. İşə qəbul edilən şəxslər peşəkar, yüksək bilikli, məsuliyyətli, müasir düşüncəli və mədəni davranışa malik olmalıdır. Dövlət qurumlarının rəhbərləri tabeliyində olan hər bir işçini tanımalı, onları narahat edən problemləri bilməli və fəaliyyətlərini diqqət mərkəzində saxlamalıdırlar.

Sonda Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının müavini V. İsmayılov Mərkəzin əməkdaşları ilə birgə qeyd olunan məsələlərlə bağlı fikir mübadiləsi aparmış və verilən sualları cavablandırmışdır.

# Xalqlararası dostluq nümunəsi

## Binəqədi rayonunda tanınmış rumın bəstəkarı Corc Enescu adına parkda Rumıniya Mədəniyyəti Günü ilə bağlı tədbir keçirilib

Mədəniyyət gününün Rumıniyanın xalq şairi Mihai Emineskunun dünyaya göz açdığı tarixdə keçirilməsi xüsusi önəm daşıyır. Rumıniya mədəniyyətinin "dan ulduzu" adlandırılan Mihai Eminesku müasir rumın dilinin inkişafına verdiyi töhfələrə görə böyük şöhrət qazanıb.



Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Rumıniyanın ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Dan İanku, Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, həmin şöbənin əməkdaşları Seymur Hacıyev və Emil Lətifov, icra hakimiyyəti başçısının 1 saylı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Dilbər Şükürova, səfirliyin və rayon bələdiyyəsinin əməkdaşları iştirak ediblər.



Əvvəlcə tədbir iştirakçıları tanınmış rumın bəstəkarı Corc Enescunun Binəqədi rayonunda yerləşən abidəsi qarşısına əklil və çiçəklər qoyublar.

Azərbaycan və Rumıniyanın Dövlət himnlərinin səsləndirildikdən sonra tədbiri açıq elan edən Rumıniyanın Azərbaycandakı səfiri Dan İanku mərasim iştirakçılarına tədbirin mahiyyəti barədə izahat verərək, iki ölkə arasındakı mövcud dostluq münasibətlərindən danışıb. Qeyd olunub ki, Azərbaycanda Rumıniya Mədəniyyəti Gününün keçirilməsi qarşılıqlı humanitar əlaqələrin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Səfir yüksək təşkilatçılığa görə Binəqədi Rayon İcra Hakimiyyətinə təşəkkürünü bildirib.

Tədbirdə çıxışedən Aygün Əliyeva iki ölkə arasındakı dostluq münasibətlərindən söhbət açıb, bu cür mədəni tədbirlərin vacibliyini, ölkələrimizin müxtəlif sahələrdə sıx əməkdaşlığını, xalqlarımızın uzun illərdir dostluq etdiyini, bir-birinin mədəniyyətinə və ənənələrinə hörmətlə yanaşdıqlarını bildirib.

Çıxışlardan sonra şairə, Rumıniya səfirliyinin əməkdaşı Fəridə Hacıyeva Corc Eneskunun Azərbaycan dilinə tərcümə etdiyi şeirlərini səsləndirib. Azərbaycanda yaşayan rumın ailənin azyaşlı övladının səsləndirdiyi şeir tədbir iştirakçılarının alqışlarına səbəb olub.

# Yeni çağırışlar təhsil sahəsində də müasir yanaşmanı zəruri edir



Binəqədi Rayon İcra Hakimiyyətinin akt zalında rayon orta ümumtəhsil məktəblərinin 2016-cı ildəki fəaliyyətinə dair iclas keçirilib

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavini Aygün Əliyeva, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Elnur Məmmədov və rayonun orta ümumtəhsil məktəblərinin direktorları iştirak ediblər.

İclasda Xaləddin İsgəndərov çıxış edərək Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsilin inkişafına yüksək diqqət və qayğı göstərildiyini vurğulayıb. Həmçinin, son illər respublikada təhsil müəssisələrinin yenidən qurulmasına, yenilərinin tikilməsinə, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrıldığını qeyd edib. Natiq qeyd bildirib ki, bu istiqamətdə davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərinin baş verməsi, inkişaf yönümlü proqram və layihələrin həyata keçirilməsi dövlətimizin başçısı cənab İlham Əliyevin ölkə təhsilinə müntəzəm diqqət və qayğısı sayəsində mümkün olub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və təmir edilən, müasir standartlara uyğun təhsil müəssisələri gələcəyimiz olan uşaqların sağlam inkişafına hesablanmış uzaqgörən siyasətin uğurlu nəticələridir.

Bununla yanaşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 10 yanvar 2017-ci il tarixində keçirilmiş Nazirlər Kabinetinin 2016-cı ilin yekunlarına həsr olunmuş iclasında və Korrupsiya Qarşı Mübarizə üzrə Komissiyanın 26 dekabr 2016-cı il tarixində keçirilmiş müşavirəsində səsləndirilən fikirlərə toxunan Xaləddin İsgəndərov orta ümumtəhsil müəssisələrində də korrupsiya hallarının baş verməsinin, bəzi məktəblərdə baş verən mənfi hallar ictimaiyyət arasında ciddi narazılıq yaratdığını da qeyd edib.

Natiq orta ümumtəhsil müəssisələrində korrupsiya və digər mənfi halların qarşısının alınması, ümumi nəzarətin təşkili, məktəblərlə bağlı ictimai rəydə səslənən fikirlərə həssas yanaşılması və digər məsələlərə toxunub. Eyni zamanda məktəblərlə bağlı sakinlərdən daxil olan şifahi və yazılı şikayətlərin araşdırılması və mənfi halların aradan qaldırılması məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilməsi tapşırılıb və qeyd edilib ki, bütün sahələrdə olduğu kimi orta ümumtəhsil müəssisələrində də korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair sistemli tədbirlər hazırlanaraq həyata keçirilməli, şəffaflıq artırılmalıdır.

# Binəqədi rayonunda yeni ilin ilk layihəsinə start verildi



Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan edilməsi ilə əlaqədar olaraq, Binəqədi rayonunda yerləşən "Xəzər" Universiteti Dünya Məktəbində "Misir Mədəniyyəti Günü" keçirilib. "Elçi daşı" layihəsi çərçivəsində həyata keçirilən bu tədbirin məqsədi Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirlikləri və mədəniyyət mərkəzləri ilə bərabər maraqlı işlər qurmaq, elm və təhsilimizi dünyaya tanıtmaq, şagirdləri bu sahəyə cəlb etməkdir. Layihəyə Misir Respublikasından başlamaq təsadüfi deyil. Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi zəngin tarixə malik olmaqla, həm də İslam ölkəsi olan Misir Azərbaycana dost dövlətdir və bir sıra müştərək bağlarımız mövcuddur.

Tədbirdə Misirin ölkəmizdəki səfiri Suzan Cəmil, Misir Mədəniyyət Mərkəzinin sədri Əhməd Sami, İordaniyanın, Sudanın səfirləri, həmçinin Səudiyyə Ərəbistanı, Fələstin, Mərakeş, Küveyt, Əlcəzair və digər ərəb ölkələrinin səfirliklərinin əməkdaşları, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, millət vəkili, professor Nizami Cəfərov, "Xəzər" Universiteti və Dünya Məktəbinin təsisçisi, professor Hamlet İsaxanlı və s. iştirak ediblər.

Çıxış edənlər Azərbaycanla Misirin müştərək mədəni bağlarından, dost ölkə kimi münasibətlərindən danışıblar. Çoxlu sayda qonaqların və media mənsublarının iştirak etdiyi bu tədbirdə qədim ərəb əfsanəsi "Leyli və Məcnun"un klassik ədəbiyyatımızda özünəməxsus yerindən söhbət açılıb. Şagirdlərin ifasında Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasından səhnələşdirilmiş parça hər kəsdə maraq oyadıb. Tədbirdə nümayiş etdirilən "Misir şagirdlərin gözü ilə" başlığı altında uşaqların rəsm əsərləri və inşa yazıları, Misir haqqında təsəvvürləri genişləndirən eksponatlardan ibarət sərgi iştirakçılar tərəfindən yüksək dəyərləndirilib.

# "Tolerantlıq, Multikulturallıq, Həmrəylik!" müsabiqəsinə yekun vurulub





Azərbaycan Prezidentinin 2016-cı il 11 mart tarixli sərəncamı ilə təsdiq edilmiş 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" çərçivəsində Binəqədi rayon orta ümumtəhsil məktəblərində "Tolerantlıq, Multikulturallıq, Həmrəylik!" adlı yaradıcılıq müsabiqəsi təşkil olunub.

Müsabiqə Binəqədi Rayon İcra Hakimiyyəti, YAP rayon təşkilatı, rayon Gənclər və İdman İdarəsi tərəfindən təsdiq edilmiş əsasnaməyə uyğun olaraq keçirilib.

Müsabiqə çərçivəsində rayon ərazisində fəaliyyət göstərən 144, 3, 83, 99, 115, 179, 182, 205, 244, 246, 248, 283, 314, 284, 297, 298, 299, 300 və 301 nömrəli tam orta məktəblərdə tədbirlər keçirilib. Müsabiqədə münsiflər heyətinin, müəllim və şagirdlərin "Multikulturalizm və tolerantlıq" haqqında çıxışları dinlənilib. Çıxışlarda qeyd olunub ki, əsrlər boyu Azərbaycan müxtəlif millətlərin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşadığı ölkə kimi tanınıb, bu gün də ölkədə tolerantlıq prinsiplərinə əsaslanan siyasət aparılır. Sonra məktəblilər müxtəlif dillərdə şeirlər söyləyib, mahnılar oxuyub, rəqslər nümayiş etdiriblər. Münsiflər heyəti tərəfindən çıxışlara baxılıb və qiymətlər verilib.

# Vətəndaş müraciətlərinin dekabr ayı üzrə statistikası

2016-cı ilin dekabr ayı ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlardan, ümumilikdə, 322 müraciət (ötən ayla müqayisədə 18 müraciət çox) daxil olmuşdur.

Vətəndaş müraciətlərindən 245-i ərizə (daxil olmuş müraciətlərin 76%i; o cümlədən əvvəlki ayla müqayisədə 21 müraciət və ya 9,4% çox) və 77-si (daxil olmuş müraciətlərin 24%-i; o cümlədən əvvəlki ayla müqayisədə 2 müraciət az) şikayət olmuşdur.

Müraciətlər daha çox Rəsulzadə qəsəbəsi üzrə (65 müraciət), Binəqədi qəsəbəsi üzrə (52 müraciət), 1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə (51 müraciət), Biləcəri qəsəbəsi üzrə (45 müraciət), Xocəsən qəsəbəsi üzrə (43 müraciət), 2 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə (29 müraciət), 28 May qəsəbəsi üzrə (3 müraciət) daxil olmuşdur.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasından, ümumilikdə, 88 (daxil olmuş müraciətlərin 27,3%-i), Milli Məclisdən 2 (daxil olmuş müraciətlərin 0,6%-i), Nazirlər Kabinetindən 15 (daxil olmuş müraciətlərin 4,7%-i) və digər qurumlardan 40 (daxil olmuş müraciətlərin 12,4%-i) müraciət daxil olmuşdur.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında 2016-cı ilin dekabr ayı ərzində 572, o cümlədən RİH başçısı tərəfindən 29 vətəndaş qəbul edilmişdir.




# Sakinlərin Müraciət Xidmətinə 2016-cı il ərzində daxil olan zənglərin qəsəbələr üzrə statistikası

| Daxil olmuş zənglər | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|
| Cavablandırılan zənglərin sayı | 18937 | 35725 | 29703 | 41795 |
| *onlardan:* | | | | |
| Birbaşa cavablandırılan zənglərin sayı | 14986 | 28028 | 22491 | 33206 |
| Tərtib edilən şikayət vərəqələrinin sayı | 3951 | 7697 | 7212 | 8589 |
| *o cümlədən:* | | | | |
| su-kanalizasiya məsələləri | 1136 | 3304 | 3206 | 3087 |
| qaz təchizatı | 802 | 1575 | 1346 | 3339 |
| istilik təchizatı | 491 | 870 | 597 | 571 |
| lift problemləri | 320 | 824 | 733 | 704 |
| məişət tullantıları | 177 | 173 | 129 | 92 |
| elektrik təchizatı | 234 | 262 | 446 | 233 |
| yolların yararsız olması | 202 | 226 | 234 | 0 |
| digər məsələlər | 589 | 463 | 521 | 563 |
| İcrası təmin edilən şikayətlərin sayı | 3828 | 7695 | 7212 | 8589 |
| *onlardan:* | | | | |
| icrası tam həll olunan şikayətlərin sayı | 3169 | 6516 | 6173 | 6799 |
| qismən həll edilən şikayətlərin sayı | 42 | 147 | 301 | 835 |
| müvafiq izahat verilən şikayətlərin sayı | 617 | 1032 | 738 | 955 |






# YAP Binəqədi rayon təşkilatının Şura iclası

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında keçirilən Şura iclasında qurumun 2016-cı ildə gördüyü işlərin hesabatı dinlənilib, 2017-ci il üçün Fəaliyyət Planı, ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarının keçirilməsi, bununla əlaqədar müvafiq qrafikin təsdiq edilməsi, rayon təşkilatının IX hesabat-seçki konfransına seçiləcək nümayəndələr üçün normanın müəyyən edilməsi, üzvlük haqlarının yığılması vəziyyəti barədə məsələlər geniş müzakirə edilib.



İclası giriş nitqi ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov gündəlikdə duran məsələlər barədə məlumat verərək rayon təşkilatının ötənilki hesabatını diqqətə çatdırıb. Bildirilib ki, hesabat dövrü ərzində YAP-ın ideoloji, təşkilati prinsiplərinin yerinə yetirilməsi, rayon təşkilatının müvafiq Fəaliyyət Planına uyğun olaraq müxtəlif mövzuları əhatə edən çoxsaylı tədbirlər, layihələr həyata keçirilib. Ümumilikdə keçirilmiş 120-yə yaxın tədbirdə 15.000-dən çox YAP üzvünün, Binəqədi rayon ictimaiyyətinin fəallarının iştirakı təmin edilib. Sədr, həmçinin, partiya üzvlərinin sıralarının günbəgün artdığını və bunun ölkə Prezidenti, YAP-ın sədri cənab İlham Əliyevin siyasi kursunun xalq tərəfindən dəstəklənməsinin bariz nümunəsi olduğunu qeyd edib. Vurğulanıb ki, 2016-cı il ərzində rayon təşkilatının üzvlərinin sayı 327 nəfər artaraq 15.450 nəfər təşkil edib. Onların arasında gənclər üstünlük təşkil edir. Ötən ilin 26 sentyabr tarixində keçirilən ümumxalq səsverməsinə diqqət çəkən natiq YAP tərəfindən yaradılan "Yeni Azərbaycan" - referendum üzrə təşviqat qrupu tərəfindən Binəqədi rayonunda keçirilən görüşlərdən ətraflı bəhs edib. Rayon təşkilatının IX hesabat-seçki konfransına hazırlıq məqsədilə görüləcək işlərdən danışan R.Göyüşov bununla əlaqədar ərazi ilk partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarının keçirilməsi üçün müvafiq qrafikin tərtib edildiyini, orada YAP üzvlərindən rayon konfransına nümayəndələrin seçiləcəyini bildirib.

Sonra YAP Binəqədi rayon təşkilatının baş təlimatçısı Rahil Şükürov qurumun 2017-ci il üçün Fəaliyyət Planı haqqında məlumat verib. Bildirilib ki, cari il üçün müzakirəyə çıxarılan Fəaliyyət Planı 47 bənddən ibarətdir və orada müxtəlif ideoloji işlərin aparılması, əlamətdar günlərin qeyd edilməsi və digər aktual məsələləri əhatə edən layihələr yer alıb.

Daha sonra iclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr başlanıb. Çıxış edən YAP Binəqədi rayon təşkilatının sədr müavini Vüsar İsmayılov bütün partiya üzvlərinin partiya ideologiyasını dərindən bilməsinin vacibliyini önə çəkərək, YAP üzvü olan gənclərin bu istiqamətdə daha çox maarifləndirilməsinin əhəmiyyətini vurğulayıb. YAP üzvlüyünün böyük məsuliyyət olduğunu və hər bir partiya üzvünün bu məsuliyyəti dərk edərək ictimai-siyasi proseslərdə daha fəal olmalarını dilə gətirib.

İclasda çıxış edənlər – sədr müavini Füzuli İsmayılzadə, Nəzarət-Təftiş Komissiyasının sədri Yolçu Zeynalov, Şura üzvləri - İsaq Həsənzadə, Elçin Hüseynov, Yeganə Cabbarlı, İftixar Piriyev, müxtəlif ərazi ilk partiya təşkilatlarının fəalları hesabatı qənaətbəxş hesab edərək öz təkliflərini irəli sürüblər.

İclasda müzakirəyə çıxarılan bütün məsələlər barədə qərar qəbul olunub.

# Ərazi ilk partiya təşkilatları hesabat verirlər

Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının IX konfransının keçirilməsi ilə bağlı hazırlıq işlərinə start verilib. Təsdiq edilmiş qrafikə əsasən, yanvarın 10-da Ziya Bünyadov 73 ünvanlı (3 saylı tam orta məktəb) ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib. Yığıncağı giriş sözü ilə açan ərazi ilk partiya təşkilatının sədri Kifayət Həsənova gündəlikdə duran məsələlər barədə məlumat verib, indiyədək görülən işlərdən bəhs edib.



İclasda çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri Vətən Hüseynov, Güllər Fərzəliyeva hesabatı qənaətbəxş hesab edərək öz təkliflərini irəli sürüblər. Daha sonra iclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr başlanılıb. Qərara əsasən 11 nəfərdən ibarət İdarə Heyəti , rayon təşkilatının IX hesabat-seçki konfransına 2 nəfər nümayəndə seçilib.



Sonda Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov yekun nitq ilə çıxış edib.

Yanvarın 10-da "Akabe MMC" ərazi ilk partiya təşkilatında da hesabat-seçki yığıncağı keçirilib. Təşkilatın sədr müavini Almaz İsmayılova gündəlikdə duran məsələlər barədə iştirakçılara məlumat verdikdən sonra təşkilati məsələlərə baxılıb. Həmzə Zeynalov ərazi ilk partiya təşkilatının sədri, Almaz İsmayılova sədr müavini və YAP Binəqədi rayon təşkilatının IX hesabat-seçki konfransına bir nəfər nümayəndə seçilib.

Yanvarın 11-də "Tərgül Ticarət Mərkəzi" ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı olub.

Təşkilatın sədri Rafiq Əliyev iclası açıq elan edərək gündəlikdə duran məsələlər barədə konfrans iştirakçılarına məlumat verib və hesabat məruzəsi ilə çıxış edib. Sonra iclasda təşkilati məsələlərə baxılıb, Rafiq Əliyev ərazi ilk partiya təşkilatının sədri, Əli İsayev sədr müavini və YAP Binəqədi rayon təşkilatının IX konfransına bir nəfər nümayəndə seçilib.

Həmin gün İ.Dadaşov küçəsi 91 ünvanlı (83 saylı məktəb-lisey) ərazi ilk partiya təşkilatında da hesabat-seçki yığıncağı baş tutub. Təşkilatın sədri Nəbi Mahmudov hesabat məruzəsi ilə çıxış edərək görülən işlər barədə yığıncaq iştirakçılarını məlumatlandırıb. Bildirilib ki, hazırda üzvlərinin sayı 72 nəfər olan ərazi ilk partiya təşkilatı öz fəaliyyətində dövlət başçısı, YAP-ın sədri cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində ciddi səy göstərir. İclasda çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri Aybəniz Əliyeva, Gülnar Məmmədova, Səbinə Eminova hesabatı qənaətbəxş hesab edərək öz təkliflərini irəli sürüblər.

Sonra təşkilatın 11 nəfərdən ibarət İdarə Heyəti üzvlərinin adları açıqlanıb, Nəbi Mahmudov təşkilatın sədri, Sevinc Rzayeva sədr müavini və YAP Binəqədi rayon təşkilatının IX konfansına iki nəfər nümayəndə seçilib.

Yığıncaqda yekun nitq ilə Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxış edib.

Yanvarın 12-də M.Ə.Rəsulzadə qəsəbəsi, Azadlıq prospekti 193 ünvanlı (99 saylı tam orta məktəb) ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib.

İlk partiya təşkilatının sədri Təranə Süleymanova hesabat məruzəsi ilə çıxış edib, təşkilatının üzvləri - Səyyad Rəfiyev, Arzuman Cavadova, Gülər Bağırova, Mərhamət Dünyamalıyeva, İlahə Səlimova və digərləri sədrin hesabat çıxışına münasibət bildirərək qənaətbəxş hesab ediblər. Daha sonra iclasda gündəliyə çıxarılan məsələlər ətrafında geniş müzakirələr başlanıb. Sonda 9 nəfərdən ibarət İdarə Heyəti üzvlərinin adları açıqlanıb, Təranə Süleymanova sədr, Mərhamət Dünyamalıyeva və Səyyad Rəfiyev sədr müavinləri, YAP Binəqədi rayon təşkilatının IX hesabat-seçki konfransına iki nəfər nümayəndə seçilib. Tədbirdə çıxış edən rayon təşkilatının sədri R.Göyüşov

ərazi ilk partiya təşkilatının fəaliyyətini qənaətbəxş hesab edib yeni seçilmiş İdarə Heyətini, sədr və müavinləri təbrik edərək, onlara işlərində uğurlar arzulayıb.

Həmin gün Biləcəri qəsəbəsi, Natəvan 19 ünvanlı (Bakı 1 №li Yol İstismar MMC) ərazi ilk partiya təşkilatında da hesabat-seçki konfransı keçirilib. Yığıncaqda çıxış edən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov gündəlikdə duran məsələlər barədə konfrans iştirakçılarana məlumat verib. Daha sonra ərazi ilk partiya təşkilatının sədri Abbas İsmayılova hesabat məruzəsi ilə çıxış edib. Məruzə ətrafında çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri Elşad Süleymanov və Vidadi Məsimov təşkilatın hesabat dövründəki fəailiyyətini qənaətbəxş hesab ediblər. Sonra təşkilati məsələlərə baxılıb və yekun qərara əsasən Abbas İsmayılov ərazi ilk partiya təşkilatının sədri, Şahin Süleymanov sədr müavini və YAP Binəqədi rayon təşkilatının IX konfransına bir nəfər nümayəndə seçilib.

Qeyd edək ki, ərazi ilk partiya təşkilatlarının hesabat-secki yığıncaqları davam edir.

# Mənzil kommunal müəssisələrinin rəhbərlərinin iştirakı ilə toplantı keçirilib

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanovun iştirakı ilə yanvarın 18-də Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin akt zalında rayonda fəaliyyət göstərən mənzil kommunal müəssisələrinin rəhbərlərinin iştirakı ilə müşavirə keçirilmişdir. Müşavirədə Binəqədi rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən Elşad Rəhimov, Binəqədi rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti 3, 15, 20 saylı İstilik Sistemləri İstismar Sahəsinin, Bakı Regional Qaz İstismar Departamentinin Binəqədi rayonu üzrə texniki istismarı xidmətinin, Bakılift 1 İxtisaslaşdırılmış İstehsal İdarəsinin, Binəqədi Yaşıllaşdırma Sahəsinin və Bakı Şəhər İşığı Binəqədi Texniki İstismar idarəsinin rəhbərləri və mühəndis-texniki işçiləri iştirak etmişlər.



Tədbiri giriş nitqi ilə açan Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov 2016-cı il ərzində görülən və 2017-ci ildə görülməsi nəzərdə tutulan işlər barəsində geniş məlumat vermişdir.

Tədbirdə kommunal xidmətlər sahəsində mövcud olan problemlərlə bağlı vətəndaş müraciətləri geniş müzakirə edilmiş, vətəndaşların qəbul günləri, qəbul qaydaları, telefon zəng mərkəzləri təhlil edilmiş, bu və ya digər sahələrdə mövcud olan problemlərin aradan qaldırılması ilə bağlı tövsiyələr verilmişdir.

İlqar Süleymanov çıxışında bildirmişdir ki, Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirmiş, ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilmiş, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşamışdır. 2016-cı ildə də ölkəmizdə iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılmışdır.

Daha sonra natiq qeyd etdi ki, 12 yanvar 2017-ci il tarixdə Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun keçirdiyi müşavirədə verdiyi tapşırıq və tövsiyələrinə uyğun olaraq xidmət təşkilatlarında 2016-cı ilin yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə başlanılmışdır. Qeyd edilmişdir ki, xidmət sahələrinin fəaliyyəti rayon sakinlərinin məmnunluğuna yönəlməli və vətəndaşların müraciətlərində qaldırılan problemlərinin həllinə xidmət göstərməlidir. Vətəndaşların müraciətlərinə baxılması, təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülsə də, vətəndaş məmnunluğunu tam təmin edilməsi sahəsində müəyyən nöqsanlar və çatışmazlıqlar hələ də mövcuddur.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri daha da gücləndirilməli, onların aradan qaldırılmasına dair təxirəsalınmaz tədbirlər hazırlanaraq həyata keçirilməli, xidmət təşkilatlarının bütün istiqamətlər üzrə fəaliyyətində şəffaflıq artırılmalıdır.

Eyni zamanda qeyd edilmişdir ki, Rayon İcra Hakimiyyətinə daxil olmuş müraciətlərin əksər hissəsi kommunal xidmətlər sahəsində yaranmış borclar və digər məsələlərlə bağlı olmuşdur. Təhlil göstərir ki, vətəndaşlarla zəruri izahat işləri aparılmır, onların müraciəti ətraflı araşdırılmır, vətəndaşlarla ünsiyyət qurulması, mövcud problemlərin həlli ilə bağlı vətəndaş təkliflərinin öyrənilməsi, ictimaiyyətlə əlaqələrin genişləndirilməsi, həmçinin görülmüş işlərin ətraflı işıqlandırılması və bu istiqamətdə məlumatların operativ olaraq ictimaiyyətin diqqətinə çatdırılması məqsədilə kommunal xidmət qurumlarının fəaliyyətində dönüş yaradılmalıdır.

# Humanitar aksiya



Heydər Əliyev Fondu tərəfindən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə aztəminatlı ailələrə bayram sovqatı paylanılıb

Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihə respublika üzrə ünvanlı sosial yardım alan bütün ailələri əhatə edib. Müxtəlif ərzaq məhsullarından ibarət bayram sovqatları dekabrın 23-dən etibarən respublika üzrə 165 mindən çox aztəminatlı ailəyə paylanılıb. Heydər Əliyev Fondunun təsis etdiyi Regional İnkişaf İctimai Birliyinin birgə layihəsi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dəstəyi ilə həyata keçirilib. Bununla yanaşı, Fondun təşəbbüsü ilə Bakının 12 rayonunda, eləcə də respublikanın bir sıra rayon və şəhərlərində sosial yardıma ehtiyacı olan minlərlə şəxs üçün bayram süfrələri təşkil olunub, tədbirlərin hər bir iştirakçısına bayram hədiyyələri verilib.

Dekabrın 29-da Binəqədi rayonunda da Fondun təşəbbüsü ilə bayram süfrəsi təşkil edilib, 400-dən çox aztəminatlı ailəyə bayram sovqatları paylanılıb, sakinlərin bayramları təbrik edilib. Tədbirdə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva belə xeyriyyə aksiyalarının əhalinin sosial müdafiəsi baxımından əhəmiyyətini vurğulayıb, Heydər Əliyev Fondunun ölkəmizin sosial-iqtisadi inkişafına yönəlik dövlət proqramlarına dəstək verərək həyata keçirdiyi müxtəlif layihələr, xeyriyyə tədbirləri barədə məlumat verib.

Binəqədi rayon sakini Şahrza Ağayev, "Sodrujestvo" Cəmiyyətinin rayon şöbəsinin sədri Elmira Bayquzina və Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri Aslan Mehdiyev çıxış edərək aztəminatlı ailələrə sevinc bəxş etdiyinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

İncəsənət ustalarının konsert proqramı tədbir iştirakçılarında xoş ovqat yaradıb.

# Dünyanın nadir qoruqlarından biri Binəqədidədir

## Hər il yanvarın 11-i Dünya Qoruqlar və Milli Parklar Günü kimi qeyd olunur

Hazırda Azərbaycanda 890 min hektaradək xüsusi mühafizə olunan təbiət ərazisi, o cümlədən 8 milli park, 12 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı mövcuddur. Belə qoruqlardan biri də Binəqədi rayonunun ərazisində yerləşən IV dövr fauna və flora təbiət abidəsidir. Binəqədi dördüncü dövr fauna qəbiristanlığının kəşfi birbaşa Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinin 3-cü kurs tələbəsi A.S.Məstanzadənin adı ilə bağlıdır. Məstanzadə Qır gölündə axtarış apararkən sümüklər tapıb və müəllimi paleontoloq V.V. Boqaçova göstərib. Professor sümüklərə baxanda anlayıb ki, burada elm üçün çox əhəmiyətli və zəngin eksponatlar (kolleksiya) var. Bundan sonta eksedisiya yaradılıb və əsas qazıntılar 1938-ci ildən başlayıb. Elə həmin ildən Azərbaycanda onurğalılar faunasının öyrənilməsinin əsas inkişaf mərhələsi başlanıb. İkinci dünya müharibəsi ilə bağlı tədqiqatlar dayandırılıb. 1947-1954-cü illərdə qazıntılar zamanı yüz mindən çox heyvan sümüyü tapılıb. Abidə nəinki Azərbaycanın, hətta bütün dünyanın ən zəngin və unikal tapıntılarından biri hesab olunur. Azərbaycan SSR Nazirlər Sovetinin 1982-ci il qərarı ilə dövlət təbiət abidəsi elan edilən bu tarixi ərazinin sahəsi 1,2 hektardır.

Binəqədi fauna və flora qəbiristanlığında qazıntılar 1953-cü ildə dayandırıldıqdan sonra 2011-ci ilin mayından bərpa edilib və indiyəqədər davam etdirilir. Binəqədi Rayon İcra Hakimiyyəti və "Regionların İnkişafı" İctimai Birliyinin dəstəyi ilə tədqiqatlar aparılır.

Binəqədi təbiət abidəsinin ərazisində 300-ə yaxın heyvan, 22 növ bitki qalıqları aşkar edilib. Aşkar olunmuş növlərin bir çoxunun nəsli kəsilib. Onu da qeyd edək ki, qazıntı işləri nəticəsində üzə çıxmış çoxlu sayda nadir heyvan qalıqları Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyinin 12 cildlik əsərlərində, eyni zamanda, respublikanın və digər ölkələrin dövri elmi nəşrlərində, ümumiyyətlə, 100-dən artıq xarici mətbuatda öz əksini tapıb. Binəqədidə tapılmış və dördüncü dövrə aid olan fauna və flora yataqları həmin dövr Azərbaycan təbiəti haqqında biliklərin artmasına və paleontologiyanın inkişafına təkan verməklə yanaşı, daş dövrünə aid insan izlərinin axtarışı üçün də vacib elmi əsas olmuşdur. Ərazidən buz dövründə yaşamış və hazırda nəsli kəsilmiş heyvanların sümükləri tapılıb. Onlar arasında Binəqədi kərgədanı, nəhəng maral, mağara kaftarı və digərlərinin qalıqlarına rast gəlmək olur. Bu qəbiristanlığın yaranmasının çox maraqlı tarixçəsi vardır. Belə ki, indiki Binəqədi qəsəbəsinin 60-70 hektarlıq bir hissəsi qədimdə qır gölü olub. Yay aylarında gölün üzərindəki parıltı heyvanlar üçün ilkin aldadıcı əlamət imiş. Su içmək niyyətində olan quşlar neftli-mazutlu gölə qonan kimi yapışıb və zəhərlənərək, qidasız qalaraq məhv olublar. Səthində parıltı və saysız-hesabsız quş cəsədləri olan göl uçan-qaçan müxtəlif növ heyvanlara "gəl-gəl" deyib. Gölün yapışqan sahilləri su içməyə gələn iri məməli heyvanları da tələyə salıb. Onların cəmdəkləri leş yeyən heyvanların asan əldə edilən yemi olub. Yırtıcılar qıra batmış quş və digər heyvanların cəmdəkləri uğrunda bəzən biri-biri ilə vuruşublar. Yem və vuruş bitdikdən sonra "ayılıblar" ki, yapışqan qır artıq onların da "möhürünü" vurub. Qısası, ac toyuqların yuxusu yalançı həqiqətə çevrilib. Bu minvalla göl yüzlərlə heyvanı, həşəratı özünə cəlb edib və qış aylarına kimi udub. Soyuq havalarda ölüm yuvasının üzəri hamar qartmaq bağlayıb və sanki burada heç nə baş verməyibmiş kimi bir mənzərə alıb. İstilər düşəndə isə üst təbəqə yenidən əriyib. Beləcə, hər ilin yayında ölüm gölü aldadıcı görüntüsü ilə yeni qurbanlarını çağırıb və saylarını artırıb.

Binəqədi qır gölü sonralar geoloji proseslər nəticəsində quruyub, ərazi qabarma və enmələrə məruz qalıb. VI əsrdə (ehtimal var ki, daha qədimdə-S.H.) həmin ərazidə Binəqədi kəndi salınıb. Kənd dövrümüzəcən o qədər genişlənib ki, elm üçün zəngin miras saxlayan qəbiristanlıq hazırda cəmi 1,5 hektar ərazini əhatə edir. Bu kiçik sahə hazırda daşlaşmış qır, nazik qum və ot təbəqələrindən ibarətdir.

Abşeron yarımadası müasir dövrdəki kimi, neft yataqları ilə bol olmuşdur. Bu cür bolluq neft gölməçələri, bataqlıqları, üzərini neft pərdəsi örtmüş su yığnaqları, həmçinin neft və qaz püskürən palçıq vulkanları ilə müşahidə olunur. 1000-1500 metr dərinliklərdən qaynaqlanan bu təbii neft göllərinin tərkibində uzun geoloji dövr ərzində bitum qatı əmələ gəlir və həmin mazut yığınları qır-bitum gölməçələrinə çevrilir. Onlara təbii qətran gölməçələri də deyilir. Qırlaşmanın əsas səbəbi qatılığa meyilli olan maddələrin üstünlük təşkil etməsidir. Şoranlı Abşeron yarımadasında buxarlanmanın yağıntıya nisbətən çox olması da bu qatılaşmada xeyli rol oynayır.



Sözügedən ərazi ictimaiyyət arasında məşhur olmasa da, elmdə "Dördüncü dövr, flora və fauna qəbiristanlığı" kimi tanınır. Abşeron təbiət abidəsi statusu almış bu qəbiristanlıq Azərbaycan Milli Elmlər Akademiyası Geologiya İnstitutunun H.Zərdabi adına Təbiət Tarixi Muzeyinin nəzdindədir. Binəqədi fauna və flora qəbiristanlığı dünyada ən zəngin paleontoloji xəzinə hesab olunur. Alimlər onun vasitəsi ilə Azərbaycan ərazisinin qədim təbiət aləmini öyrənirlər. Belə ki, qəbiristanlıqdan qalıqları tapılmış heyvanlar skeletlərinin, o cümlədən dişlərinin və buynuzlarının ölçülərinə, həmçinin qidalanma tərzlərinə görə öz müasirlərindən və digər ərazilərdə mövcud olmuşlardan fərqlənirlər. 1940-cı ildə tapılmış sümüklərdən Binəqədi kərgədanının skeleti bərpa edilib və bu günə qədər Təbiət Tarixi Muzeyində nümayiş etdirilir. O, yalnız sümüklərinin ölçüləri yox, uzun tükləri ilə də alimləri xeyli maraqlandırır. Halbuki, müasir kərgədanların dərisi tüksüz və ya müvəqqəti xırda tüklü olur. Kərgədanın uzun tüklərə malik olması təxminən 200 min il bundan əvvəl iqlimin indikindən xeyli soyuq olduğuna işarədir.

Mağara kaftarı iri dırnaqlı heyvanların sümüyünün iliyini xoşlayırmış. Güclü çənəyə malik olan bu heyvan başqalarının sümüklərini asanlıqla sındırırmış. Nəhəng maral 5 metr hündürlüyü, gücü, çəldliyi, daha qəşəng qaməti, alimləri təəccübləndirən qədər ağır olan buynuzları ilə müasirlərindən seçilirmiş. Buynuzlarının ağırlığı onun son dərəcə yüngül və zərif hərəkət etməsinə qətiyyən əngəl olmayıb. Bu heyvanın uzunluğunu müəyyən etmək üçün tapılan sümüklər kifayət etmir. Tədqiqatlar sübut etmişdir ki, nəhəng maral Binəqədi qır gölündən əvvəl- indiki dövrdən təxminən 300-400 min il qabaq yaşayıb.

Kolleksiyada nəhənglərin arasında xırda cücülər də vardır və onların bəziləri elə görünür ki, sanki canları hələ də özlərindədir. Bu canlıların onurğalılara nisbətən daha çox və bütöv aşkarlanması mumiya rolunu oynayan qır və onlarda xitin örtüyünün yaxşı qalması ilə izah olunur.

Qəbiristanlıqda sümüklərdən əlavə, mumlaşmış bağ, dəri və vətər parçalarına, həmçinin müxtəlif növ bitki qalıqlarına rast gəlinib. Buradan tədqiqatçılar belə nəticəyə gəlir ki, o vaxt Abşeron yarımadasında ağaclıq və kolluq müasir dövrə nisbətən daha zəngin olmuşdur. Əsasən quraqlığa davamlı kserofit və bataqlıq bitkiləri üstünlük təşkil etmişdir. Sonralar mühit dəyişkənliyi, təbii fəlakət və s. səbəblərdən o dövrdəki bəzi heyvanların nəsli kəsilib.

1938-53-cü illərin qazıntılarında buradan ümumən 300-ə qədər heyvan və bitki növünün qalıqları tapılıb. Kolleksiyada 43 növ məməli, 105 növ quş, 2 növ sürünən, 1 suda-quruda yaşayan, 120-dən çox böcək, 22 bitki növü, 1 molyuska vardır. Alimlər əmindir ki, bütün bu tapıntılarldan əlavə, qəbiristanlıq təqribən 100 cücü növünü gizli saxlayır.

Burada qırın qalınlığı 4 metrdir. Lakin qazıntılar sübut edir ki, kəndin tikintiləri altında olan hissələrdə bu rəqəm 7-ni keçir. Ərazi aşkar olunanda sümük və bitki qalıqları hətta yerin üzərinə çıxıbmış.

Təbiətşünas alimlər Binəqədi qır gölünü Şimali Amerikanın Los-Anceles şəhərindəki Ranço La Brea fauna məskəni ilə müqayisə edir. Oxşarlıq böyükdür. Əsas fərq isə odur ki, Ranço La Breanın ən qədim tapıntısının 60 min, Binəqədi fauna və flora qəbiristanlığı 190 min il yaşı vardır. Hər iki fauna qəbiristanlığı qədim mühitləri və tapıntılarının növlərinə görə də xeyli fərqlənir. Digər fərq La Breada heyvanların qarnında qidaların da aşkarlanmasıdır. Bu, həmin ərazinin nisbətən cavan olmasından irəli gəlir və o dövrkü canlıların nə ilə qidalandığını dəqiq müəyən etməyə imkan verir.

Binəqədi fauna qəbiristanlığı yerli alimlərdən əlavə, Rusiya və Ukrayna geoloqlarının da tədqiqat obyekti olub. Tapıntılar barədə məlumatlar Təbiət Tarixi Muzeyinin 12 cildlik əsərində, respublikamızın və xarici ölkələrin dövri elmi nəşrlərində, mətbuatında 100-dən artıq məqalədə öz əksini tapmışdır.

# Qış həm də xəstəliklər mövsümüdür

Psixoloji, eyni zamanda fizioloji baxımdan təzadlı fəsil olan payızda insan orqanizmində bir sıra dəyişikliklər baş verir. Xüsusilə yaz-payız aylarında xroniki xəstəliklərin özünü daha çox büruzə verməsi faktdır. Payızda depressiv, hava-damcı yolu ilə keçən xəstəliklər, ürək-damar xəstəliklərai və ruhi sarsıntılar üstünlük təşkil edir. Bəs bu xəstəliklərdən necə qorunmaq olar?



Binəqədi rayonunda fəaliyyət göstərən 25 saylı şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilova müxbirimizə açıqlamasında bildirib ki, iqlimin dəyişməsi təbiətin bir parçası və ayrılmaz hissəsi olan insanın orqanizmində də bir sıra dəyişikliklərə səbəb olur. Havanın temperaturunun kəskin dəyişməsi payız-qış aylarında bütün xroniki xəstəliklərin fəallaşmasına gətirib çıxarır: "Bəzi insanlar temperaturun kəskin dəyişməsinə reaksiya verməsələr də immun sistemi zəif olanlar buna qarşı mübarizə aparmaq iqtidarında olmurlar. Xüsusən, soyuqdəymə, qrip, allergik və ürək-damar xəstəlikləri, bronxit, ağ ciyər, mədə-bağırsaq sistemi xəstəlikləri payız-qış fəslində daha çox qeydə alınır. Böyrək çatışmazlığı, şəkərli diabet və qan təzyiqindən əziyyət çəkənlər bu mövsümdə daha diqqətli olmalıdırlar. İnsanlarda ümumi halsızlıq, infeksion xəstəliklərə qarşı müqavimət və iş qabiliyyəti zəifləyir".

Xatirə xanımın sözlərinə görə, mövsümi xəstəliklərin qarşısını ev şəraitində də almaq olar: "Bunun üçün ilk növbədə bədənin immun sistemi möhkəmləndirilməlidir. Həkimə müraciət edə bilməyən insanlar xroniki xəstəliklərin qarşısını almaq üçün immun sistemini artıran bir sıra şirələrdən istifadə etməlidir. Həmin şirələrin ev şəraitində hazırlanması daha yaxşı olar. Xüsusən kök, alma, nar, çuğundur, balqabaq şirəsini hazırlayıb içmək çox faydalıdır. Havalar soyuyanda insanlar ev şəraitindən çıxmamağa üstünlük verirlər. Amma əksinə, isti geyinib açıq təmiz havada gəzmək lazımdır ki, mövsüm xəstəliklərinin qarşısı alınsın".

**Qış mövsümündə insanların psixologiyasında da müəyyən problemlər yaranır. Psixoloqların sözlərinə görə, bu vaxt iqlim dəyişdiyi üçün orqanizmdə biokimyəvi stress yaranır.**

Qış mövsümündə insanların psixologiyasında da müəyyən problemlər yaranır. Psixoloqların sözlərinə görə, bu vaxt iqlim dəyişdiyi üçün orqanizmdə biokimyəvi stress yaranır. Mütəxəssislərin fikrincə, bu halı yalnız insanlarda deyil, bütün canlılarda müşahidə etmək mümkündür. Ən çox biokimyəvi stress insan psixologiyasında ciddi fəsadlar yaradır. Belə ki,insan psixologiyası insan fiziologiyasına, insanın biokimyasına çox bağlıdır. Fəsil dəyişkənliyi insan orqanizmində olduğu kimi, psixologiyasında da müəyyən dəyişikliklərə səbəb olur. Və təbii ki, insanda bu zaman depressiya halları çox olur. Qısamüddətli halsızlıq, ruh düşkünlüyü qorxulu depressiya kimi qəbul olunmamalıdır. Səthi depressiya qrip kimi bir şeydir, o, həkim müdaxiləsi olmadan belə, tezliklə keçib gedir. Təbiətdəki bütün canlıların özlərini yeni mövsümə hazırlayarkən keçirdikləri bir durğunluq dövrüdür. Hər canlının yaşadığı bu fiziki və ruhi dəyişikliyi bəzi heyvanlar qış yuxusuna gedərək keçirirlər.

# Məcburi köçkünlər hərtərəfli qayğı ilə əhatə olunub

Ötən əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü respublikamızı dünyanın ən çox qaçqın və məcburi köçkünü olan ölkələrindən birinə çevirib. Azərbaycan ərazisinin 20 faizi işğal olunub, Dağlıq Qarabağdan, ətraf rayonlardan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 1 milyona yaxın azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşıb.

Yurd-yuvasını itirmiş insanların ən sıx məskunlaşdıqları rayonlardan biri də Binəqədidir. Statistik məlumatlara əsasən, hazırda rayonun mərkəzində və onun beş qəsəbəsində respublikanın işğal olunmuş bölgələrindən 56 min 801 nəfər insan məskunlaşıb ki, onlardan 15 min 54 ailə məcburi köçkün kimi rayon qeydiyyatındadır. Qaçqınların və Məcburi Köçkünlərin İşəlri üzrə Dövlət Komitəsinin Binəqədi rayonu üzrə sektorundan əməkdaşımıza verdiyi məlumata görə, bu ailələrdən 581-i Şuşa, 286-sı Xocalıdan, 30-u Ağdərə rayonundan, 84-ü Xankəndi şəhərindən, 256-sı Xocavənd , 1351-i Laçın, 3661-i Ağdam , 3197-i Füzuli, 1669-u Zəngilan, 874-ü Kəlbəcər, 2.462-si Cəbrayıl rayonlarından, 679-u Qubadlı, 32-si Qazax rayonunun işğal olnmuş Aşağı Əskipara, Yuxarı Əskipara, Bağanes Ayrım, Seyrimli və Qızıl Hacılı kəndlərindən, 5 ailə isə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndindən olan köçkünlərdir.

Məlumatda bildirilir ki, ki, ötən müddət ərzində Dövlət komitəsinin Binəqədi rayon sektoruna daxil olmuş ərizə, məktub və müraciətlərə diqqətlə yanaşılıb, məcburi köçkünlərin problemləri əsasən həllini tapıb və bir qisminin Binəqədi rayonunda kommunal xidmətlərlə bağlı güzəşt siyahısına əlavə olunması təmin edilib, qanunun tələblərinə uyğun olaraq "məcburi köçkün" statusu verilib. Bundan əlavə, ötən illərdə köçkünlərin işlə təminatı da daimi diqqət mərkəzində olub. Rayon ərazisində təşkil olunan yarmarkalarda Binəqədi rayonunda məskunlaşmış 20 nəfərə yaxın məcburi köçkün işlə təmin edilib, 100-də çox köçkünə isə kommersiya və məişət xidməti sahələrində fərdi əməklə məşğul olması üçün bazalarda və yarmarkalarda müvafiq şərait yaradılıb. Ötən illər ərzində Binəqədi rayonu 7-ci mikrorayon ərazisində yerləşən 40 saylı körpələr evi-uşaq bağçasından 9 ailə, 9 mikrorayon M. Cəlal küçəsində yerləşən 114 saylı körpələr evi-uşaq bağçasından 4, 8-ci mikrorayon S.S.Axundov küçəsində yerləşən 193 saylı körpələr evi-uşaq bağçasından 3, Dərnəgül yaşayış massivı S. Bəhlulzadə küçəsində yerləşən 215 saylı körpələr evi-uşaq bağçasından 7, 9-cu mikrorayon M.Cəlal küçəsində yerləşən 238 saylı körpələr evi-uşaq bağçasından 10, H.Babaşov küçəsində yeni inşa olunan Məscid tikintisi ilə əlaqədar 112, Binəqədi qəsəbəsi Ə.Qarayev küçəsində yerləşən Korlar fabrikinin inzibati binasından 4 və 7-ci mikrorayon, bina 16, mənzil 38 ünvanında, zəbt olunmuş mənzildə məskunlaşmış 1 ailə (cəmi 150 ailə, 458 nəfər) köçürülərək Abşeron rayonu, Mehdiabad qəsəbəsi ərazisində məcburi köçkün və şəhid ailələri üçün nəzərdə tutulmuş yeni qəsəbələrdə mənzillərlə təmin olunub.

Dərnəgül yaşayış massivi S. Bəhlulzadə küçəsi 29a ünvanında yerləşən Azərbaycan Dövlət Pedaqoji Universitetinin 1 saylı, A.Gəraybəyli küçəsi 24a və 24b ünvanında yerləşən Azərbaycan Dövlət İqtisad Universitetinin 1 və 2 saylı yataqxanaları isə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən təmir edilib. Eyni zamanda, rayon ərazisində məskunlaşmış köçkünlərə mütəmadi olaraq maddi yardımların göstərilməsi də diqqət mərkəzində olub. Hər ilin fevral ayında Goradil bağlar massivində yerləşən 2 saylı Evtikmə kombinatının istirahət zonasında məskunlaşmış Xocalı şəhərindən olan aztəminatlı və şəhid ailələrinə Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən ərzaq bağlaması təqdim olunur, maddi yardım edilir. Köçkünlərin sıx yaşadıqları ərazilərdə kommunal məsələlərin həlli xüsusi diqqət mərkəzində olub. Qış aylarında Dərnəgül yaşayış massivindəki yataqxanalarda məskunlaşmış məcburi köçkünlərin su və elektrik enerjisi təminatında yaranmış problem aradan qaldırılıb. Bundan əlavə Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il 1 iyul tarixli, 298 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın 2.23-cü bəndinə uyğun olaraq, bayramlar ərəfəsində rayon ərazisində məskunlaşmış məcburi köçkün, şəhid və aztəminatlı ailələrə Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən bayram sovqatları paylanıb, şənliklər təşkil olunub.

## Bu il neftin qiyməti 50 dolları ötəcək



Beynəlxalq Valyuta Fondu (BVF) 2017-ci il üçün neftin orta qiyməti üzrə proqnozunu 0,6 dollar artıraraq 51,2 dollar/barrel təyin edib. Bu barədə fondun hesabatında deyilir.

Hesabata görə, 2018-ci ildə neftin qiyməti 53 dollar/barrel səviyyəsinə çatacaq. Neftin qiymətinin artmasına səbəb Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) və digər neft istehsalçı ölkələrin neft hasilatının azaldılması üzrə müqavilə imzalaması və 2017-ci ildə Çin iqtisadiyyatının neft hasilatı sayəsində sürətli artım göstərəcəyi ilə əlaqədar proqnozlardır.

Beynəlxalq Valyuta Fondu neftin qiyməti üzrə proqnozunu 2016-cı ildə təqribən 7 dollar artırıb.

## Qəhvə və çay ürək üçün faydalı imiş



Britaniyalı alımlər müəyyən ediblər ki, çay və qəhvə ürək-damar xəstəliklərinin yaranması riskini azaldır.

Məlum olub ki, bu içkilərin tərkibindəki kofein qan damarlarının iltihabına səbəb olan kimyəvi maddələri zərərsizləşdirir. Çay və qəhvə içməyənlər ilə müqayisədə mütəmadi kofeinli içkilər içən insanların qanında iltihabi proseslərə az təsadüf edilib.

Tədqiqatçılar bildirirlər ki, laboratoriya sınaqları zamanı alkaloid iltihab əmələ gətirən kimyəvi maddələrə qarşı fəal "mübarizə aparmaqla", ürək-damar xəstəlikləri riskini azaldıb.

## İki şahmatçımız beynəlxalq turnirdə iştirak edəcək

Yanvarın 20-28-də İranın Rəşt şəhərində şahmat üzrə XV Xəzər kuboku beynəlxalq turniri keçiriləcək.

Yarışda ölkəmizi Qədir Hüseynov və Ülvi Bacarani təmsil edəcəklər.

İsveçrə sistemi üzrə 9 turdan ibarət yarışda 13 ölkədən 88 şahmatçı birincilik uğrunda mübarizə aparacaq.






# Azərbaycanda uşaq hüquqları dövlət tərəfindən qorunur

### Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın illik hesabatı

Son illərdə respublikamızda uşaqların müdafiəsi sahəsində genişmiqyaslı islahatlar aparılır. Bütün bunlar əsasən Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya tərəfindən həyata keçirilir. Qeyd edək ki, komissiyanın hər bir rayon icra hakimiyyətində eyniadlı struktur bölməsi fəaliyyət göstərir.



Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının 31 may 2002-ci il tarixli 336-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyalar haqqında" Əsasnaməyə, "Uşaq hüquqları haqqında" BMT Konvensiyasına və bir sıra digər hüquqi sənədlərə əsaslanır.

Komissiyanın əsas vəzifəsi uşaq hüquqlarının təmin edilməsi, illik hesabatı təhlil etmək və nəticələri qiymətləndirməkdir. Bundan başqa, qurum mütəmadi olaraq uşaqların vəziyyətinə dair müzakirələr keçirir, uşaq hüquqlarının təmin edilməsi sahəsində hazırlanmış dövlət proqramlarına, milli fəaliyyət planlarına, irihəcmli layihələrə dair rəy bildirir, monitorinqlər aparır.

Ötən il ərzində komissiyanın icraatına cəmi 672 sənəd daxil olub. Bunlardan 552-i idarə, müəssisə və digər təşkilatlardan daxil olan məktublar, 120-si vətəndaşlardan daxil olan müraciətlərdir.

Qəyyumluq və himayəçilik komissiyasının fəaliyyətinə aid olan məsələlərlə bağlı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 73-cü maddəsinə əsasən məhkəmələrdən uşaqların tərbiyəsi ilə bağlı mübahisələrə baxılması ilə əlaqədar rəy verilməsi üçün komissiyanın icraatına 142 mülki iş daxildir. Onlardan 114-ü üzrə müvafiq rəylər verilib, 10-u üzrə isə rəy verilməsi mümkün olmayıb (tərəflərin barışması ilə əlaqədar), 18-i icraatdadır. Komissiyaya daxil olan digər sənədlərdən 164-ü məhkəmə və icra şöbəsində maraqlı şəxs qismində iştirak edilməsi barədə bildirişlər, 22-si yetkinlik yaşına çatmayanların mülkiyyətində olan əmlakın qeydə alınması, 14-ü tərəflərin mənzil-məişət şəraitinin müayinə edilməsi, 82-si məhkəmə orqanlarından daxil olmuş qətnamə və qərardadların surəti, 85-i isə digər məsələlərlə bağlıdır.

Komissiyaya vətəndaşlardan cəmi 120 müraciət daxil olub ki, onlardan 32-si ad və ya soyadın dəyişdirilməsi, 5-i uşaq tələbi, 15-i uşaqlarından ayrı yaşayan valideynin və ya baba və nənənin ünsiyyət hüquqlarının bərpa edilməsi, 4-ü nikah yaşının aşağı salınması, 13-ü qəyyumluğa götürmə, 11-i uşağın internat məktəbinə yerləşdirilməsi, 4-ü müvafiq uşaq müəssisəsindən geri qaytarılma, 3-ü övladlığa uşaq götürməyi arzu edən şəxs qismində uçota alınma, 17-si yetkinlik yaşına çatmayanların mülkiyyət hüquqları olduğu əmlak hissəsi barədə əqdlərin bağlanmasına razılıq verilməsi, 2-si doğum haqqında şəhadətnamənin alınmasına köməklik göstərilməsi, 14-ü isə digər məsələlərlə bağlı olub.

Komissiya tərəfindən cari il ərzində 452 vətəndaş qəbul edilərək müraciətlərində qaldırdıqları məsələlərlə bağlı müvafiq izahatlar verilib. Daxil olan sənədlərdən 22-si dərsdənyayınma, 3-ü əməyin istismarı, 13-ü məktəbdə nizam-intizam qaydalarının pozulması, 2-si xırda xuliqanlıq, 3-ü isə digər məsələlərlə bağlıdır. Həmin işlərə komissiya tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq baxılaraq uşaqlar və onların valideynləri barəsində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnamənin 9-cu və 10-cu maddələrinə əsasən intizam tədbirləri görülüb, habelə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 189-cu maddəsinə əsasən müvafiq qərarlar qəbul edilib.

2016-cı il ərzində Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, valideyn himayəsindən məhrum olan uşaqların ilkin uçotu aparılıb və bu kateqoriyadan olan 37 uşaq aşkar edilib. İlkin uçota götürülən 37 valideyn himayəsindən məhrum olmuş uşaqlardan 20-si üzərində Azərbaycan Respublikası Ailə Məcəlləsinin 136-cı maddəsinə uyğun olaraq qəyyum təyin edilib, 17 uşaq isə müvafiq internat müəssisəsinə yerləşdirilib.

Hazırda qəyyumluq və himayəçilik komissiyasında qeydiyyata alınmış və üzərlərində qəyyum təyin edilmiş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sayı 69 nəfərdir. Komissiya üzvləri tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq qəyyumluğa verilmiş uşaqların ailələrinə nəzarət xarakterli səfərlər edilir, onların saxlanılması, təhsili və yaşayış şəraiti yoxlanılır.

# Orduya hazırlıq məktəb yaşlarından başlanılmalıdır

Azərbaycan dövləti gənc nəslə xüsusi qayğı ilə yanaşır, gəncliyin vətənpərvər ruhda tərbiyəsinə yetərincə diqqət ayırır, yeniyetmələrin sağlamlığına, mənəvi inkişafına xidmət edən bir sıra mühüm qərarlar qəbul edir. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi vətənpərvər ruhda böyümə, xalqına, millətinə sadiqlik deməkdir. Sağlam ruhda yetişən uşaq, yeniyetmə və gənc sabahın əsgəri, vətənin keşikçisidir. Şübhəsiz ki, vətəni fiziki cəhətdən sağlam insanlar qoruyurlar. Məhz bu baxımdan, ölkəmizdə gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi xüsusi diqqət mərkəzində saxlanılır.



Paytaxtın Binəqədi rayonunda da gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsi istiqamətində mütəmadi olaraq tədbirlər təşkil olunur, layihələr həyata keçirilir. Əsas məqsəd isə gənclər arasında vətənpərvərlik ruhunun gücləndirilməsi, çağırış yaşına çatmış gənclərin hərbi xidmətə həvəsləndirilməsi istiqamətində maarifləndirmə işinin təşkili üsullarını öyrətmək və təbliğ etməkdir. Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə yeniyetmə və gənclərin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə hörmət ruhunda tərbiyə olunması və gələcək nəsillərin qan yaddaşının möhkəmləndirilməsi məqsədilə orta ümumtəhsil məktəblərinin şagirdlərinin Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun "Memorial Soyqırımı Muzeyi", "İstiqlal" muzeyinə ekskursiyası təşkil olunur, vətənpərvərliklə bağlı müsabiqələr, tədbirlər, seminarlar keçirilir. Vətən sevgisi, torpağa bağlılıq, milli atributlarımıza hörmət gənclərin ən müqəddəs borcudur. Bu istiqamətdə ümumtəhsil məktəblərinin üzərinə böyük məsuliyyət düşür. Rayon ərazisində fəaliyyət göstərən məktəblərdə hərbi-vətənpərvərlik tərbiyəsini gücləndirmək məqsədilə hərbi hissələrlə əməkdaşlıq çərçivəsində silsilə tədbirlər təşkil olunur. Hazırda hərbi-vətənpərvərlik tərbiyəsi bütün pedaqoji kollektivlərin, ictimai təşkilatların müntəzəm məşğul olduğu bir sahəyə çevrilib.

284 saylı orta məktəbin direktoru Nizami Novruzovun sözlərinə görə, əsl vətəndaş yetişdirmək üçün təhsil sahəsi qarşısında böyük vəzifələr qoyulub: "Bununla belə, dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil, bütün bunlar hər bir sahədə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir. Bu baxımdan, təbliğatın uğurlu və təsirli olmasında kütləvi informasiya vasitələrinin rolu əvəzolunmazdır. Televiziya kanallarında yayımlanan vətənpərvərlik proqlamları, tariximizi əks etdirən verilişlər diqqətlə izlənilir. Gənc nəslin orduya hazırlığı barədə danışarkən orta məktəblərdə tədris olunan bədən tərbiyəsi dərslərinin rolunu da qeyd etmək yerinə düşər. Bu gün Azərbaycanın müharibə şəraitində olduğunu nəzərə alsaq, böyüməkdə olan nəslin fiziki tərbiyəsinin necə əhəmiyyət kəsb etdiyinin fərqinə vararıq. Binəqədi gənclərinin vətənpərvər vətəndaş kimi yetişməsində əlimizdən gələni etməyə çalışırıq. 20 yanvar hadisələrində və Qarabağ savaşında şəhidlik zirvəsinə yüksələn igidlərimizin uyuduğu Şəhidlər xiyabanına ziyarətlərin təşkil edilməsi, veteranlarla görüşlərin keçirilməsi, Xocalı abidəsinin ziyarəti gənclərimizin milli ruhda tərbiyəsində əvəzsiz rol oynayır. Məktəbimizdə vətənpərvərliklə bağlı müxtəlif mövzularda inşa, şeir və rəsm müsabiqələrinin keçirilməsi ənənə halını almışdır. Bütün bunlar isə, dediyim kimi, gənc nəslin vətənpərvərlik tərbiyəsinə yönəldilmişdir".

3 saylı tam orta məktəbin hərbi hazırlıq müəllimi Elgiz Səlimovun sözlərinə görə, hərbi-vətənpərvərlik tərbiyəsi bir məqsədə - gəncləri vətənimizin fəal müdafiəsinə hazırlamaq məqsədinə xidmət etməlidir: "Vətənpərvərlik insanın daxili aləmini üzə çıxaran müqəddəs duyğudur. Vətəni sevmək - hər bir vətəndaşın üzərinə düşən vəzifələri kompleks şəkildə vicdanla yerinə yetirməsi deməkdir. Bu sevgi torpağa olan bağlılıqdan və milli adət-ənənələrə, dövlətçiliyə hörmətdən qaynaqlanır. Məktəblərin pedaqoji kollektivlərinin qarşısında gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələr qoyulması heç də təsadüfi deyildir. İndiki şəraitdə çağırışa qədərki məktəbli gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi böyük əhəmiyyət kəsb edir. Məhz bu baxımdan, gəncləri məktəb yaşlarından orduya hazırlamalıyıq".

Respublikamızın ümumtəhsil, orta ixtisas və ali məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, ümumilikdə bütün fənlərin gənclərə hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları vardır və bu imkanlardan geniş şəkildə istifadə olunmaqdadır.

Bu gün müstəqil respublikamızın inkişafı, ilk növbədə, böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaş kimi formalaşmasından asılıdır. Uşaqların bir vətəndaş kimi böyüməsində cəmiyyətin, mühitin rolu böyükdür. İstər ailədə, istər məktəbdə, istərsə də cəmiyyət daxilində aşılanan tərbiyənin əsas məqsədi kamil şəxsiyyət, vətənpərvər insan yetişdirməkdir.